

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## "COP29 turizmin inkişafına töhfə verəcək"




9

SƏS
№ 070 (6995)
24 aprel 2024-cü il.
Qiymәti 60 qәpik

# Azərbaycan üçün Yaşıl Baxış



2

Prezident İlham Əliyev: "İqlim dəyişiklikləri məsələlərinin həlli baxımından biz həqiqətən istərdik ki, COP29 uğurla keçsin"

# Haylar tərəfindən edilən NÖVBƏTİ OYUNBAZLIQ




5

## Keçmişdə qalan dəyərlərimizdən biri: kitab oxumaq



6

## "Milli Şuranın AŞPA qarşısında öhdəliyi çoxdur, Azərbaycanın isə yox"



7

## Hansı evlərə sənəd verilə bilməz?



16

## Oxumayın!



14

## Yaz-yay sezonunda hansı rənglər dəbdə olacaq?



11

# Azərbaycan üçün Yaşıl Baxış



## Prezident İlham Əliyev: "İqlim dəyişiklikləri məsələlərinin həlli baxımından biz həqiqətən istərdik ki, COP29 uğurla keçsin"




***2024-cü il COP29-a ev sahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupuna düşmüşdü. Sözügedən qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsi ilə bağlı namizədliyini irəli sürmüşdü. Şərqi Avropa regional qrupu Azərbaycanı 2024-cü ildə COP-a ev sahibliyi edəcək ölkə kimi müəyyənləşdirib. "Bu, Azərbaycana olan beynəlxalq ictimaiyyətin böyük hörmət və dəstəyinin təzahürüdür". Bu fikri Prezident İlham Əliyev aprelin 23-də ADA Universitetində təşkil olunan "COP29 və Azərbaycan üçün Yaşıl Baxış" mövzusunda beynəlxalq forumda çıxışında deyib.***

### "AZƏRBAYCANIN COP29-A SƏDRLİYİNƏ HƏM DƏ ƏN TƏXİRƏSALINMAZ MƏSƏLƏLƏRİN HƏLLİNƏ QLOBAL ALƏMDƏ TÖHFƏ VERMƏK FÜRSƏTİ KİMİ BAXIRIQ"

Cənab Prezident qeyd edib ki, COP29-a biz öz sədrliyimizə nəinki özümüzü nümayiş etdirmək, həm də ölkəni təqdim etmək fürsəti kimi baxırıq. Əslində, bu, vacibdir. Dövlətimizin başçısı vurğulayıb ki, Azərbaycanın COP29-a sədrliyinə həm də ən təxirəsalınmaz məsələlərin həllinə qlobal aləmdə töhfə vermək fürsəti kimi baxır.Təbii ki, beynəlxalq tədbirlərə ev sahibliyi etməkdə maraqlı olan və böyük təcrübəyə sahib Azərbaycan dövləti toplantıların yüksək səviyyədə keçirilməklə göstərilən etimad və inamı yüksək səviyyədə doğruldur. Heç şübhəsiz ki, dünyada ən mötəbər beynəlxalq tədbirlərdən biri olan COP29-a da Azərbaycan uğurla ev sahibliyi edəcəkdir. Vurğulayaq ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı - COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Hər il dünyanın hər yerindən hökumət nümayəndələri COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində keçirilib.

### "İQLİM DƏYİŞİKLİKLƏRİ MƏSƏLƏLƏRİNİN HƏLLİ BAXIMINDAN BİZ HƏQİQƏTƏN İSTƏRDİK Kİ, COP29 UĞURLA KEÇSİN"

Bildiyimiz kimi, COP-28-in gündəliyinə böyük maraq var idi. Buna görə də belə bir tədbirin keçirilməsində ölkəmizin üzərinə çox böyük məsuliyyət düşür. Əlbəttə ki, bu tədbirin keçirilməsi çox məsuliyyətli proses olacaq. COP29 çərçivəsində bütün dünyada gedən proseslərə, o cümlədən iqlim, həm digər yaşıl ideyalar, yaşıl proqramla bağlı məsələlərə Azərbaycan platformasında baxılacaqdır.

"İqlim dəyişiklikləri məsələlərinin həlli baxımından biz həqiqətən istərdik ki, COP29 uğurla keçsin", - deyən Prezident eyni zamanda, bunun bizim fikirlərimizi söyləmək üçün fürsət olacağını bildirib. Azərbaycan Prezidenti İlham Əliyev forumda beynəlxalq ekspert, ABŞ-ın Azərbaycanda sabiq səfiri Metyu Brayzanın sualına cavabında bildirib: "Siz tam haqlısınız ki, bizim dünyaya söyləyəcəyimiz məsələlər çoxdur. Həqiqəti söyləmək imkanımız var. Hesab edirəm, ev sahibi ölkə olmağın üstünlüklərindən biri ondan ibarətdir ki, biz on minlərlə insanı qəbul edəcəyik. Onların əksəriyyəti ölkəmizə ilk dəfə səfər edəcəklər".

Azərbaycanın dövlət maraqlarına uyğun şəkildə həyata keçirilən beynəlxalq tədbirlər ölkəmizin dünyadakı nüfuzunu günü-gündən daha da sarsılmaz edir. BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-un Azərbaycanda keçirilməsi əlbəttə ki, ölkəmizə olan daha bir inam və ehtiramın göstəricisidir. Azərbaycanın dünyanın ən böyük və mühüm dövlətlərarası tədbirlərindən biri olan COP29-a 2024-cü ildə ev sahibliyi etməsi ölkəmizin inkişafının təqdimatı baxımından da əhəmiyyətlidir.

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulub. Ölkəmiz 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyir. 2030-cu ildən sonra isə daha iddialı hədəf müəyyən edilib ki, bu da 2050-ci ilə qədər istixana qazlarının miqdarının 40 faiz azaldılmasından ibarətdir.

### "DÜNYA BUNDAN SONRA UZUN İLLƏR ƏRZİNDƏ HASİL EDİLƏN ENERJİ MƏNBƏLƏRİNƏ EHTİYAC DUYACAQ"

"Yaşıl enerji ilə ənənəvi enerji arasındakı mütənasibliyə gəldikdə, düşünürəm ki, dünya bundan sonra uzun illər ərzində hasil edilən enerji mənbələrinə ehtiyac duyacaq. Bunun bir gün ərzində dayandırılmasını düşünmək sadəlövhlük olardı" - deyən Prezident bildirib. Dünyanın bunun üçün hazır olmadığını vurğulayan dövlətimizin başçısı bildirib: "Dünya iqtisadiyyatı və sənayesi bunun üçün hazır deyil. Fikrimcə, əldə oluna bilinməyən hədəfdənsə, ən yaxşı yol mütənasiblik yaratmaqdır və təkamül yolu ilə getməkdir". Bildiyimiz kimi, yaşıl enerjinin inkişafı və yaşıl enerjinin dünya bazarlarına çıxışı Azərbaycanın enerji siyasətinin prioritetləri sırasındadır.

### COP29-DAN ƏVVƏL AZƏRBAYCAN İLƏ ERMƏNİSTAN ARASINDA SAZİŞƏ NAİL OLMAQ, ƏN AZI BAZA PRİNSİPLƏRİ ÜZRƏ RAZILIĞA GƏLMƏK TAM REAL GÖRÜNÜR

Azərbaycan Prezidenti çıxışında COP29-dan əvvəl Azərbaycan ilə Ermənistan arasında sazişə nail olmağın, ən azı baza prinsipləri üzrə razılığa gəlməyin tam real göründüyünü diqqətə çatdırıb. Dövlətimizin başçısı əlavə edib ki, baza prinsipləri üzərində razılığa gəlmək, həmçinin variant hesab olunur, sonra isə müddəaların təfərrüatlarına vaxt sərf etmək olar. "Hətta sazişin layihəsi hazır ola bilər. Düşünürəm ki, bunun üçün hər iki tərəf, sadəcə "ürəkdən çalışmalıdır", - deyə Prezident diqqətə çatdırıb. Biz məsələnin sülh sazişinin imzalanmasına, həllinə heç vaxt olmadığı qədər yaxınıq, - deyən dövlətimizin başçısı bildirib ki, biz işğal zamanı buna heç vaxt yaxın olmamışıq. Həmin vaxt biz baza prinsipləri üzərində belə razılığa gələ bilmirdik.

Həmin vaxt hətta "Madrid Prinsipləri" üzrə razılığa gəlinmədiyini xatırladan dövlətimizin başçısı bildirib ki, o zaman sülh sazişinin layihəsi belə yox idi. İndi isə o, artıq mövcuddur. "İndi bizim sülh sazişinin necə olması ilə bağlı ümumi anlayışımız var. Biz, sadəcə, təfərrüatları işləməliyik. Lakin, əlbəttə, hər iki tərəfə vaxt lazımdır", - deyə dövlətimizin başçısı əlavə edib.

### "ÜÇ İLDƏN ÇOXDUR Kİ, ERMƏNİSTAN BU MÜDDƏANI, ƏSLİNDƏ, POZUR"

Zəngəzur dəhlizinə gəldikdə, isə Prezident qeyd edib ki, 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda bu məsələ aydın şəkildə əks olunur: "Bəli, "Zəngəzur dəhlizi" sözü orada qeyd olunmayıb. Lakin yazılıb ki, Azərbaycanın Şərq hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasında yol əlaqəsi olmalıdır və Rusiyanın sərhəd qüvvələri nəzarəti təmin etməlidir. Bu, Prezident Putin, Baş nazir Paşinyan və mənim tərəfimdən imzalanmışdır. İndi isə üç ildən çoxdur ki, Ermənistan bu müddəanı, əslində, pozur".

İndi isə Ermənistanın həmin müddəanı aradan çıxarmaq istəyində olduqlarını vurğulayan Prezident bildirib ki, bu, mümkün deyil. "Onlar Naxçıvan Muxtar Respublikası ilə yol əlaqəsini qurmaq imkanını bloklayır. Bu cür münasibət, təbii ki, çox məyus edicidir", - deyə Prezident İlham Əliyev bildirib.

Qeyd edək ki, bu hadisənin önəmi, ondan ibarətdir ki, bu qərar antiterror əməliyyatından iki ay yarım sonra qəbul olunmuşdur. COP29 Azərbaycanda bu vaxta qədər keçirilmiş tədbirlərlə müqayisəyə gəlmir. Belə ki, Avropa Oyunlarınında 5 min idmançı və onları müşayiət edən 3 minə yaxın qonaq ölkəmizə gəlmişdir. COP29-da isə gözləntilər daha çoxdur. On minlərlə xarici qonağın ölkəmizə gəlməsi gözlənilir. Prezident İlham Əliyevin 2024-cü ili "Yaşıl dünya naminə həmrəylik ili" elan etməsi Azərbaycanın davamlı inkişaf istiqamətindəki qlobal səylərə olan sadiqliyinin daha bir ifadəsidir.

Azərbaycan Prezidenti İlham Əliyevin nümayiş etdirdiyi güclü siyasi iradə və Şərqi Avropa Qrupunun üzvü olan dövlətlərin Azərbaycanın COP29-a ev sahibliyi etmək üçün ölkəmizin namizədliyini dəstəkləməsi uğurumuzda mühüm əhəmiyyət kəsb edir. Ölkəmiz neft-qaz ölkəsi kimi bu sahədə də özünü göstərəcəkdir.

**Nəzakət ƏLƏDDİNQIZI**

# Dünyada analoqu olmayan layihə - BAM

## Prezident İlham Əliyev: "Biz fəxr edirik ki, azərbaycanlı inşaatçılar, mütəxəssislər tikintidə fəal iştirak ediblər"



**"Azərbaycanın Rusiya ilə münasibətləri dostluq, qarşılıqlı maraq, hörmət əsasında qurulub və müxtəlif sahələri əhatə edən müqavilələr, sazişlər imzalanıb. Bu münasibətlər bu gün yeni reallıqlara əsaslanır. Azərbaycan Prezidenti İlham Əliyevin Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə mütəmadi olaraq keçirdiyi görüşlər, ikitərəfli və beynəlxalq gündəmdə olan əsas mövzularla bağlı müzakirələr bu əlaqələrin daha da genişlənməsinə gətirib çıxarır. Əlbəttə ki, Rusiya ilə Azərbaycanı çoxəsrlik dostluq, mehriban qonşuluq telləri bağlayır. Bu əlaqələr bu gün keyfiyyətcə yeni səviyyəyə çatıb.**

Dövlətlərarası siyasi dialoq, fəal parlamentlərarası və regionlararası əməkdaşlıq tənzimlənib. Müstəqillik dövründə iki ölkə arasında mövcud olan münasibətləri qoruyub saxlayaraq keyfiyyət və mahiyyətcə yeni səviyyəyə çıxarmaq mümkün olmuşdur. Bu gün Rusiya-Azərbaycan münasibətləri strateji tərəfdaşlıq xarakteri daşıyır və əməkdaşlığın bütün sahələrini, o cümlədən siyasi, iqtisadi-ticarət, sosial, mədəniyyət, humanitar, təhsil istiqamətləri nəzərdə tutur, eyni zamanda böyük həcmdə hərbi-texniki əməkdaşlığı əhatə edir. Bu və ya digər amillər deməyə əsas verir ki, ölkələrimiz arasında çox geniş müqavilə-hüquq bazası vardır. İmzalanmış sənədlər sırasında "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə xüsusi əhəmiyyət kəsb edir. Bəyannamə Azərbaycan Rusiya arasında münasibətləri müttəfiqlik səviyyəsinə çıxarıb.

### "HEYDƏR ƏLİYEV AMİLİ RUSİYA VƏ AZƏRBAYCANIN DÖVLƏTLƏRARASI MÜNASİBƏTLƏRİNDƏ HƏMİŞƏ MÜHÜM ROL OYNAYIB VƏ OYNAYACAQ"

Aprelin 22-də Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya işgüzar səfəri və Rusiya Federasiyasının Prezidenti Vladimir





Putinlə görüşü bu əlaqələrin davamlığına söykənir. Bildiyimiz kimi, Baykal-Amur Magistralının 50 illiyidir. Sovet İttifaqı üçün mühüm layihənin təşkilatçılarından olan Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin magistralın tikintisindəki xidmətləri bu gün də yüksək səviyyələrdə etiraf və təqdir olunur. 1974-cü ildə tikintisinə qərar verilən layihənin icrası məqsədilə o vaxt hələ Azərbaycana rəhbərlik edən Heydər Əliyevin tapşırığı ilə minlərlə gənc BAM-a yollandı. "Heydər Əliyev amili Rusiya və Azərbaycanın dövlətlərarası münasibətlərində həmişə mühüm rol oynayıb və oynayacaq." Bu fikri Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə birlikdə Baykal-Amur Magistralının (BAM) 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşündə bildirib. Heydər Əliyevin xatirəsinin əbədiləşdirilməsinə görə BAM inşaatçılarına təşəkkür edən dövlətimizin başçısı Anqoya qəsəbəsindəki vağzala Ulu Öndər Heydər Əliyevin adının verilməsini xatırladıb. İlham Əliyevin dediyi kimi, BAM üzərində iki gözəl qəsəbə tikdilər. Amma əsas odur ki, onların memarlığı Azərbaycan milli üslubunda hazırlanıb. Bu qəsəbələr Ulkan və Anqoyadır.

"BAM inşaatçıları yaxşı bilirlər ki, O, praktiki olaraq piyada, qatarla, vertolyotla, çətin şəraitdə Bratskdan Vladivostoka, Naxodkaya qədər uzun məsafə qət edib, on gün ərzində sevinc və kədərini BAM inşaatçıları ilə bölüşüb", - deyə Prezident İlham Əliyev əlavə edib.

*Ardı Səh. 4*



# Dünyada analoqu olmayan layihə - BAM

## Prezident İlham Əliyev: "Biz fəxr edirik ki, azərbaycanlı inşaatçılar, mütəxəssislər tikintidə fəal iştirak ediblər"

Əvvəli Səh. 3

### ŞƏRQƏ DÖNÜŞ BAYKAL-AMUR MAGİSTRALI SAYƏSİNDƏ MÜMKÜN OLDU

Xatırladaq ki, Ulu Öndər Heydər Əliyevin birbaşa nəzarət etdiyi BAM-ın tikintisi öz çətinliyi və ziddiyyətləri ilə seçilirdi. Miqyasına görə dünyada analoqu olmayan layihə böyük olduğu qədər də çoxsaylı problemlərə malik idi. Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dönəmdə tikintisi vüsət götürən magistralın 210-cu kilometrliyində azərbaycanlılar tərəfindən Ulkan stansiyası inşa edildi və onun ətrafında Ulkan qəsəbəsi salındı. Həmin qəsəbənin salınması isə birbaşa Ulu Öndərin nəzarəti altında həyata keçirilirdi. "Qeyd etdiyiniz kimi Heydər Əlirza oğlu Əliyev vaxtilə Ümumittifaq tikintisi adlandırılan bu nəhəng layihənin həyata keçirilməsində fəal iştirak edib və onun reallaşdırılmasına öz töhfəsini verib. Ona görə bizim üçün əlbəttə ki, bu tədbirdə iştirak etmək çox xoşdur və böyük şərəfdir. Bu gün bu qlobal layihənin həyata keçirilməsinə öz töhfəsini verən insanlarla da görüşəcəyik" - deyə Prezident diqqətə çatdırıb.

Onu da əlavə edək ki, Azərbaycandan ilk inşaat dəstəsi bu ərazilərə 1975-ci ilin əvvəlində gəlib. O vaxt Ulkan qəsəbəsinin yalnız adı var idi. İndi bu yerlər tanınmaz dərəcədə dəyişib, yeni insan məskəni salınıb. BAM, Sovet İttifaqının hər yerindən olan iki milyon gəncin nəhəng əməyinin və cəsarətinin təcəssümüdür. BAM əsasən XXI əsr üçün qlobal logistikanı müəyyən edir. İndiki mərhələdə Şərqə dönüş məhz Baykal-Amur Magistralı sayəsində mümkün olmuşdur.

### "HEYDƏR ƏLİRZA OĞLU BAM-IN TARİXİNDƏ MÜSTƏSNA, BÖYÜK ROL OYNAYIB"

Azərbaycanlıların da iştirakı ilə tikilən və uzunluğu 209 kilometr olan dəmir yolu xəttinin çəkilişi vaxtından 2 ay əvvəl başa çatdırılır.

Təsadüfi deyil ki, 2008-ci il iyulun 18-də BAM-ın Anqoya stansiyasında istifadəyə verilən vağzala Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı verildi.

"BAM-ın tikintisinə başlanmasının yarıməsrlik yubileyi münasibətilə Azərbaycan Prezidenti İlham Heydər oğlu Əliyevi şəxsən təbrik etməkdən çox məmnunam. Onun atası, - bunu bütün BAM inşaatçıları yaxşı bilir, - Heydər Əlirza oğlu BAM-ın tarixində müstəsna, böyük rol oynayıb. Heydər Əlirza oğlu SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində Baykal-Amur Magistralının tikintisinə rəhbərlik edir və bu çətin layihənin həyata keçirilməsi üçün əlindən gələni əsirgəmirdi. Bu işdə ona böyük bilik və təcrübə, idarəçilik istedadı, ən mürəkkəb problemləri həll etmək bacarığı və əlbəttə ki, xüsusi şəxsi keyfiyyətlər, ilk növbədə, çalışdığı insanlara qayğıkeş, hörmətli münasibət kömək etdi və o, bu nəhəng problemləri həll edə bildi. O, özü BAM-ın obyektlərində oldu, inşaatçılar, yeni qəsəbə və şəhərlərin sakinləri ilə söhbət etdi. Necə deyərlər, rahatlıqla ona yaxınlaşa, problemlərini danışa, cari məsələləri müzakirə edə bilərdin" - deyə Rusiya Prezidenti bildirib.

"BAM-ın tikintisi Sovet İttifaqının bütün respublikalarını birləşdirib", - deyən Azərbaycan Prezidenti bildirib ki, bu, həqiqətən də belədir. Onu təsadüfən ümumittifaq tikintisi adlandırmırdılar. Əlbəttə, biz fəxr edirik ki, azərbaycanlı inşaatçılar, mütəxəssislər tikintidə fəal iştirak ediblər".

Azərbaycan və Rusiya aasında əlaqələr birgə əməkdaşlığa əsaslanır. Hər iki dövlətin liderlərinin imzaladığı son bəyannamə tərəflər arasında bir çox sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsinə təkandır. "Biz əlaqələrimizin inkişafından çox razıyıq. Artıq iki ildən çoxdur ki, 2022-ci ilin fevralında burada, Kremldə imzaladığımız və əsas siyasi sənəd olan, gələcəkdə münasibətlərimizin ardıcıl inkişafını müəyyən edən müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə çərçivəsində işləyirik", - bildirən dövlətimizin başçısı qeyd edib ki, ölkələrimizi və tərəfdaşlarımızı birləşdirən "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi yük daşımalarının təhlükəsizliyi baxımından və bir çox ölkələr arasında ticari münasibətləri stimullaşdırmaq üçün qlobal əhəmiyyətə malikdir: "Regional təhlükəsizlik məsələləri həmişə bizim görüşümüzün gündəliyindədir. Biz, həmçinin şadıq ki, onlar öz həllini tapır. Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir. Ölkələrimiz arasında əməkdaşlıqdan, qarşılıqlı fəaliyyətdən çox şey asılıdır. Biz qarşılıqlı fəaliyyət və qarşılıqlı maraqlar ruhunda etimad tədbirlərinin, əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə və bütün məsələlərin nizamlanmasına çalışırıq.

Bugünkü görüşə görə bir daha minnətdarlığımı bildirirəm və əminəm ki, bu, münasibətlərimizin inkişafına yeni təkan verəcək".

### "KREMLDƏ İŞLƏDİYİ İLLƏRDƏ SOVET DÖVLƏTİNİN VƏ ONA TAPŞIRILAN SAHƏNİN İNKİŞAFINA RƏVAC VERMƏK ÜÇÜN BÖYÜK SƏYLƏR GÖSTƏRİB"

Cənab Prezident onu da diqqətə çatdırıb ki, 2000-ci illərin əvvəllərində ölkələrimiz arasındakı dostluq və mehriban qonşuluq münasibətlərinin əsasını məhz Vladimir Vladimiroviç Putin və Heydər Əlirza oğlu Əliyev qoyublar. Vladimir Vladimiroviç 2001-ci ildə Azərbaycana səfər edib və bu, bizim bu gün birlikdə keçdiyimiz böyük yolun başlanğıcı olub: "Bu gün biz iki ildən artıqdır ki, müttəfiqlik qarşılıqlı fəaliyyəti çərçivəsində həyata keçirilən əməkdaşlığımızın bir çox planlarının icra edilməsi məsələlərini müzakirə edik. Əlbəttə, Heydər Əliyev amili dövlətlərarası münasibətlərimizdə həmişə mühüm rol oynayıb və oynayacaqdır. Çünki o, Moskvada bu binada, Kremldə işlədiyi illərdə sovet dövlətinin və ona tapşırılan sahənin inkişafına rəvac vermək üçün böyük səylər göstərib. Onlardan biri də nəqliyyat sahəsi idi".

Heydər Əlirza oğlunun anadan olmasının 100 illiyinin qeyd edilməsinə görə Vladimir Vladimiroviçə və rusiyalı dostlarımıza minnətdarlığımı bildirən Azərbaycan Prezidenti ötən il Azərbaycanda və Rusiyada Onun yubileyinin xüsusi ehtiramla qeyd edildiyini bildirib: "Bu, bizim ümumi tariximizdir, biz bunu çox yüksək qiymətləndiririk.

Bu gün sevindirici haldır ki, müasir Rusiya-Azərbaycan münasibətləri dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və məqsədyönlülük kimi möhkəm təmələ əsaslanır. Bu gün biz, Vladimir Vladimiroviçin qeyd etdiyi kimi, təkcə böyük nəqliyyat layihələri həyata keçirmirik, həm də "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin yaradılmasında fəal iştirak edirik, həm iqtisadi, həm siyasi, enerji, humanitar və bir çox digər sahələrdə fəal əməkdaşlıq aparırıq".

Ölkələrimiz arasında əlaqələrin sürətli inkişafının qarşıdakı dövrdə də uğurla davam etdirilməsi və daha da genişləndirilməsi məqsədilə bu ilin yanvarında "Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi" imzalanıb.

Humanitar əlaqələr də Azərbaycan-Rusiya əməkdaşlığında mühüm yer tutur. Hazırda Azərbaycanın 26 ali məktəbində rus dilində təhsil həyata keçirilir, 16 min Azərbaycan vətəndaşı olan tələbə rus dilində təhsil alır. Həmçinin 324 orta məktəbdə təhsil rus dilində aparılır. Bu, onilliklər ərzində xalqlarımızı birləşdirən bütün yaxşı cəhətlərin qorunmasında, dövlətlərarası münasibətlərin bünövrəsini təşkil edən dostluq əlaqələrinin güclənməsində və inkişafında mühüm əsaslardan birini təşkil edir.

*Zümrüd BAYRAMOVA*

# Haylar tərəfindən edilən NÖVBƏTİ OYUNBAZLIQ

Bir qrup Ermənistan vətəndaşının Xeyrımlı-Aşağı Əskipara yolunu bağlaması, daha doğrusu, həmin yolda şou təşkil etməsi heç də təəccüblü görünmür. Çünki artıq siyasi zibilliyə atılan Qarabağ klanının üzvlərinin də, daşnakların da, özlərini revanşist adlandıranların da görüntü yaratmaq xatirinə təşkil etdikləri tamaşaları, oyunlarını çox görmüşük, onların oyunbazlıqlarına da, özlərinə də bələdik və onu da bilirik ki, onların rəyi də, fikri də heç nəyə təsir etmir, edə də bilməz. Deməli, bu da hayların növbəri oyunbazlığı kimi qiymətləndirilir və kəndlərin Azərbaycana qaytarılması barədə danışıqlardan, razılaşmalardan sonra ümumiyyətlə, mahiyyət etibarı ilə heç bir məna belə kəsb etmir.

## Şou kimi bir aksiya keçirildiyi artıq Ermənistan ictimaiyyətinin özünə də bəllidir

Məlumatlara əsasən, yolu bağlamaq üçün yığışan etirazçılar içərisində yerli sakinlər azlıq təşkil edib. Hətta belə bir xəbər də yayılıb ki, çəkiliş zamanı çoxlu sayda etirazçının toplaşdığı görüntüsünü yaratmaq üçün İrəvandan bir neçə qrup da gətirilibmiş. Bir sözlə, xüsusi təşkil olunmuş, ssenariləşdirilmiş şəkildə, şou kimi bir aksiya, növbəti oyunbazlıq təəssüratı bağışlayan etiraz aksiyası keçirildiyi artıq Ermənistan ictimaiyyətinin özünə də bəllidir. Bəlli olan odur ki, bütün bunlar kimlərinsə oyunlarıdır və yerli sakinlər haqda düşünən belə olmadığı kənardan müşahidə edildiyi zaman da aydın şəkildə görünür. Əks halda, heç bir əlavə "canfəşanlıq" edilmədən, hansısa "müdaxilələr" olmadan belə məhz yerli sakinlərin etiraz aksiyası təşkil olunardı, amma bunun da olması məntiqi deyil, çünki ərazilərin sahibləri azərbaycanlılardır, həmin kəndlər Azərbaycana məxsusdur və bu barədə artıq etiraf da edilib, razılığa da gəlinib, razılaşma da olub, sənəd də imzalanıb. Bundan sonra şou göstərərək ortaya atılmaq, yol kəsmək, yol bağlamaq və hansısa cəfəng fikirlər səsləndirmək oyunbazlıqdan başqa bir şey deyil.

## Ərazilər öz qanuni sahibinə qaytarılmalıdır və heç bir şou bunun qarşısını ala bilməz

İndi erməni cəmiyyətində bir qrup şəxslər fikir formalaşdırmağa çalışırlar ki, guya yerli sakinlər, həmin o dörd kəndin sakinləri razılaşma ilə qətiyyən barışmaq niyyətində deyillər və barışmayıblar. Belə bir yalanı ortaya atanlar özlərini axmaq yerinə qoyublar, çünki onların dediklərinin heç bir məntiqi əsası yoxdur. Maraqlıdır, kim barışmaya bilər və nə ilə barışmaya bilər? Azərbaycana məxsus olan kəndlərin məhz Azərbaycana, azərbaycanlılara qaytarılmasına barışmaya bilərlərmi? Bununla barışmamaq mümkündürmü və ümumiyyətlə, bu barədə düşünələrmi? Azərbaycana məxsus olan kəndi ermənilər işğal edəndən sonra həmin kənddə məskunlaşan sakinlər kəndin qaytarılacağını bilməli idilər və bilməyənlər indi də olsa buna əmin oldular. Bu əminlikdən sonra kiminsə, hansısa yerli sakinin etiraz etməsi görüntüsü ilə şou xatirinə həmin o aksiyanı təşkil edənlər özləri inana bilərlər bu uydurmaların ilə. Onlardan soruşmaq yerinə düşərdi ki, görəsən, Ermənistanda daha kimlər barışmaq istəmirlər ərazilərin öz sahiblərinə qaytarılması ilə? Ərazilərin öz qanuni sahiblərinə qaytarılması ya razılaşma yolu ilə olur, ya da hərbi yolla. Amma istənilən halda ərazilər öz qanuni sahibinə qaytarılmalıdır. Bununla bağlı kiminsə barışdığını, barışmadığını soran, soruşan olmur. Yəni, ortaya düşüb şou göstərənlər bu həqiqəti də başa düşə bilmirlər? Ərazilər öz qanuni sahiblərinə qaytarılmalıdır və bununla barışılmadığı görüntüsünü yaratmaq istəyənlər anlamalıdırlar ki, heç bir şou, heç bir oyunbazlıq bunun qarşısını ala bilməz.




## Bəzi qüvvələrin məqsədi yalnız qeyri-sabitlik yaratmaqdan ibarətdir

Xeyrımlı-Aşağı Əskipara yolunun bağlanması kənardan müşahidə edildikdə belə təxribatdan başqa bir şey kimi görünmür. Dərhal da bəlli olur ki, məqsəd normal şəraiti, danışıqları, razılaşmaları, nəticə etibarı ilə bütün prosesi, ələlxüsus da gözlənilən sülh prosesini pozmaqdır. Hətta bəzi politoloqların fikrinə görə, bu şəkildə aksiyaların keçirilməsi, guya narazılıqların ifadə olunması Ermənistanın özünə də kənardan diktə olunur. İndi erməni cəmiyyətində də etiraf olunur ki, bəzi qüvvələrin məqsədi yalnız Ermənistanda qeyri-sabitlik yaratmaqdan ibarətdir. Bunun üçün də lazım gəldikdə, İrəvanın tən ortasında göstərdikləri şounun indi lap elə kəndlərdə də göstərilməsinə razıdırlar. Demokratiya adı altında oynanılan oyunlar kimi, indi də yeni oyunbazlığın ortaya atılmasında görünür, maraqlı qüvvələr var və bunun erməni cəmiyyəti də artıq fərqindədir. Yolu bağlayan qrupla "Ermənistan" blokundan olan deputat Qarnik Danielyan arasında mübahisənin baş verməsi, nəticədə də sonuncunun ağır bədən xəsarətləri alması məsələnin nə yerdə olduğu qənaətinə gəlməyə əsas verir və kənar qüvvələrin planlarının olması dərhal özünü göstərir. İrəvanın özündə belə bir qrup şəxsin hansısa oyunlara alət olması faktı deyilənləri təsdiq edir. Məsələn, Ermənistana məxsus müstəqil mətbuat səhifələrində qeyd olunduğu kimi, şənbə günü Azadlıq meydanı yaxınlığında Tumanyan küçəsini bağlayaraq, guya etiraz aksiyası keçirdikləri görüntüsü yaradan bir qrup şəxsin, "torpağı icarəyə verirlər, siqnalınızı çalın", deməsi özü böyük bir oyunbazlıqdır. Bir neçə avtomobilin siqnal çalması danışıqları, razılaşmaları qüvvədən salır, yoxsa həmin kəndlərin öz sahiblərinə, azərbaycanlılara qaytarılmasının qarşısını alır? Yəqin ki, ən ağılsız erməni belə belə bir düşüncədə ola, bunun mümkünlüyünü güman belə edə bilməz. İrəvanda etiraz əlaməti olaraq sürücülərin siqnallarını çalmalarını tələb etmək və yolu bağlamaq hansı hüquqi qüvvəyə malik olmaq deməkdir və bununla nəyə ümid etməyə dəyər? Əlbəttə ki, heç nəyə. O zaman müşahidə edilənin adını oyunbazlıqdan başqa nə qoymaq olar və qeyri-sabitlik yaratmaqdan başqa nə kimi məqsəd ola bilər?

## Kəndlərin qaytarılması barədə razılaşmanı dünyanın müxtəlif ölkələrinin diplomatları, rəsmiləri, siyasətçiləri də dəstəkləyiblər

Azərbaycanla Ermənistan arasında razılığa gəlinməsini, dörd kəndin öz əzəli və əbədi sahiblərinə, azərbaycanlılara qaytarılması barədə hər iki ölkənin baş nazirlərinin müavinlərinin son görüşündə alınan qərarı, imzalanan razılaşmanı artıq dünyanın müxtəlif ölkələrinin diplomatları, rəsmiləri, siyasətçiləri də dəstəkləyiblər. Onların əksəriyyəti birbaşa danışıqlar yolu ilə əldə edilən bu müsbət nəticəni sülh sazişinin imzalanması istiqamətində mühüm addım hesab etdiklərini açıq-aydın şəkildə bəyan edirlər. Məsələn, nümunə üçün qeyd edək ki, Avropa Şurasının prezidenti Çarlz Mişel Ermənistan və Azərbaycan arasında 1991-ci il Almatı bəyannaməsini iki ölkə arasında sərhədlərin delimitasiyası üçün əsas götürmək barədə razılaşmasını alqışlayıb. O, bu barədə X sosial şəbəkəsində də yazıb. "Hər bir ölkənin ərazi bütövlüyünün birmənalı tanınmasına əsaslanan sərhədlərin delimitasiyası Brüsseldəki müzakirələrin də əsas elementi olub və bu, normallaşma və sülh yolunda mühüm addım olacaq", deyə Avropa Şurası prezidentinin qeydləri təsadüfi hesab oluna bilməz və deyilənləri təsdiq edir. Rəsmi Bakı da hadisələrin bu cür qiymətləndirilməsi ilə tamamilə razıdır. Bu baxımdan, Azərbaycan Xarici İşlər Nazirliyinin hadisəni "çoxdan gözlənilən tarixi hadisə" adlandırması özü də səbəbsiz və təsadüfi sayıla bilməz. O zaman sual olunur ki, bəs bütün dünyada belə bəyənilən prosesin qarşısını kim almağa çalışır? Çalışırsa məqsədi nədir? Ümumiyyətlə, bu qədər yüksək qiymətləndirmədən sonra onların etdiklərinə oyunbazlıqdan başqa nə ad vermək olar?

## Ermənistanda legitim hökumət var və öz öhdəliklərini, imzaladığı rəsmi sənədləri yerinə yetirməyə borcludur

Ermənistanda suları kimin bulandırdığı əslində rəsmi Bakını nə maraqlandırmır, nə də az da olsa belə qətiyyən narahat etmir. İstənilən halda, Ermənistan adlı bir ölkədə öz öhdəliklərini və imzaladığı rəsmi sənədləri ən azından yerinə yetirməyə borclu olan legitim hökumət var. Ermənistan hakimiyyəti ilə erməni cəmiyyətinin bir hissəsi arasında alovlanan münaqişə onların daxili işidir və buna qarışmaq fikrində də deyilik. Məsələ artıq öz həllini tapıb. Ermənistan tərəfi artıq rəsmi şəkildə dörd kəndin qaytarılmasına razılıq verib və bu razılaşma imza ilə təsdiq də olunub. Hətta Ermənistanın Qərb müttəfiqləri belə bu qərarı alqışlayıblar. İndi həmin ölkənin hakimiyyət orqanları revanşistlərə müqavimət göstərməyə çalışmalıdırlar. Çünki özləri hamıdan yaxşı bilirlər ki, hər hansı qisas cəhdi Ermənistan dövlətçiliyinin tamamilə itirilməsi ilə nəticələnə bilər. Deməli, özlərini artıq yaxşı aparmalı olduqlarını özləri də hamıdan yaxşı bilməlidirlər. Ələlxüsus, onu bilməli və xatırlamalıdırlar ki, indi oyunbazlıq edənlər kimi, eyni ilə Qarabağda oyun quranlar, "ölün, amma Qarabağı verməyin" sözlərini yüksək, uca səslə səsləndirənlər heç də həmin ərazilərdə özləri ölümə getmədilər, hamıdan qabaq qaçıb aradan çıxdılar və indi İrəvanın hansı küncündə gizləndiklərini də heç kim bilmir. Qarabağda təxribatçı fikirlərin müəllifləri Azərbaycanın işğaldan azad etdiyi əraziləri hamıdan qabaq tərk etdilər, qaçıb İrəvanda gizləndilər və başqalarını, təxribata uyanları güdaza verdilər. İndi də eyni şəkildə təxribatlara uyanların, kimlərinsə oyunlarına, oyunbazlıqlarına alət olanların taleyi də tam eyni olacaq.

***İnam Hacıyev***



# Keçmişdə qalan dəyərlərimizdən biri: kitab oxumaq

***23 Aprel - Ümumdünya Kitab və Müəlliflik Hüququ Günüdür. Elə bu əlamətdar gündə bir çox dəyərlər kimi keçmişdə qalan kitab və kitab oxumaq haqqında danışmaq istəyirəm. Artıq biz vaxtilə kitab oxumağımızdan şirin, lakin itirilmiş bir dəyərin xatirəsi kimi bəhs edirik. Hansı ki, sadəcə kitab oxumurduq, əslində kitab aludəçilərinə çevrilmişdik, desəm, yanılmaram. Bir kitabın bitməsində o biri başlayırdısa, o da bitən kimi axşama boş qalmamaq üçün kitabxanalara yeni kitablar dalınca yollanırdıqsa, bu, aludəçilik deyildimi? Həmin kitablar isə mənəvi qidamız olaraq bizi həmişə "tox" saxlayırdı. Dünyanı, həyatı, sevgini, yaxşı-pisi, məhəbbət-nifrəti, sədaqət-xəyanəti, zəriflik-kobudluğu bu kitablar vasitəsilə öyrənirdik. Obrazlar bizə həyatda necə olmağı aşılayırdı, necə yaşamağı əxz edirdi. Yaxşının əksi olanların hər birinə nifrət etməyə, yaxşının hər birinə oxşamağa çağırırdı.***

Bəli, sosial şəbəkələr həyatımıza daxil olmazdan əvvəl biz kitab oxuyurduq. Sanki birdən-birə o kitabları əlimizdən alıb cırıb vərəq-vərəq edib ətrafımıza səpələdilər. Əlimizdən alınan kitabların yerinə hər birimizə bir telefon verib sosial şəbəkəli etdilər bizi. Sanki bu, belə olmalı imiş. Belə də oldu. Qısa zaman kəsiyində o aludəçiliyimiz bu aludəçiliklə əvəz olundu. Biz vərəqlərində göz yaşımız, səhifələri arasında çiçəklərimiz, səhifələrində gələcəyə qurduğumuz xəyallarımız qalan kitabları bükub elə bir küncə atdıq ki, bir də ona yaxın düşüb içində itirdiklərimizi axtarmağa belə cəhd etmədik. Lakin yaxın gələcəkdə bu səhvimizin acısını yaşayacağıq, bu, sözsüzdür. O kitablarda itirdiklərimizi axtaracağıq. Lakin təəssüf ki, nə o kitabları, nə də içində itirdiklərimizi bir daha tapmayacağıq...

### Oxumaq vərdişini qazandıq, sonra itirdik

Hər hansı müsbət vərdişi qazanmaq illər hesabına əldə olunur. Bu, heç də asan məsələ deyil. Elə kitab oxumaq vərdişinə də illərlə nail olmuşduq. Bu, hər birimizin qaçılmaz vərdişinə çevrilmişdi. Daha sonra bu vərdişin itirilməsi isə sanki ən dəyərli bir əşyamızı itirdik desəm, az olar. Bunu ən vacib bir orqanımızın, məsələn, beynimizin, ürəyimizin itirilməsi kimi dəyərləndirmək olar. Çünki biz beyinsiz, ürəksiz necə yaşaya biləriksə, kitab oxumadan da o cür yaşamış oluruq. Bu müqayisəni boş yerə gətirmədim. Yəni kitab oxumağın bədənimizdəki aparıcı bir orqan kimi düşünülməsinin daha doğru olduğu üçün ondan bəhs etdim.

İndi kitab oxumuruq, fərqinə varsaq, gündən-günə sanki beyinsizləşirik, ürəksizləşirik. Beynimiz hər gün saatlarla sosial şəbəkələrdə oxşar videolara "baxmaqla" kütləşir. Dəyərsiz videoları dəfələrlə izləməkdən artıq ürək kimi həyati dəyərli orqanımızı da itirməkdəyik. Çünki bir hadisəni o qədər görürük ki, o, bizim üçün adiləşir. Hər hansı bir halın adiləşməsindən dəhşətli isə heç nə yoxdur. Sanki gənclər ta nə əvvəlki kimi sevir, nə də əvvəlki kimi nifrət edir. Bütün hadisələrə sanki əvvəlki həssaslıqla yanaşmırıq. Uzun sözün qısası, həyatımızda adiləşmə adlı bir proses gedir. Bu prosesin sonunda nə ilə qarşılaşacağımızın isə indidən qığılcımları görünməkdədir. Kitab oxumaq kimi vərdişin itirilməsi, onun yerini alan yersiz alışqanlıqların nəticəsini yaxın gələcəkdə bizə həyat özü anladacaq...



### Kitab oxumaqda çox geridə qalmışıq

Təbii ki, kitab oxumaq vərdişləri tək Azərbaycanda deyil, bütün dünyada əvvəlki kimi deyil. Lakin dəhşətli hal ondan ibarətdir ki, biz dünyada bu sahədə ən geridə qalmış ölkəyik. Bu barədə araşdırma aparərkən belə bir məlumatla qarşılaşdım ki, Böyük Britaniyada yerləşən "NOP World Culture Score Index"in tərtib etdiyi məlumatlara görə, dünyada ən çox kitab oxunan ölkə Hindistan, Tayland və Çindir. Dünyanın ən çox kitaba sahib ölkəsi olaraq siyahının başında olan Hindistanda hər bir insan həftədə orta hesabla 10 saat 42 dəqiqə kitab oxuyur. İkinci yerdə olan Taylandda adambaşına həftədə orta kitab oxuma vaxtı 9 saat 24 dəqiqə olduğu halda, üçüncü yerdə olan Çində insanlar buna həftədə 8 saat ayırır.

Siyahıda ən çox kitab oxunan digər ölkələr Filippin (7 saat 36 dəqiqə), Misir (7 saat 30 dəqiqə), Çexiya (7 saat 24 dəqiqə), İsveç (7 saat 6 dəqiqə), Fransa (6 saat 54 dəqiqə) olub, Macarıstan (6 saat 48 dəqiqə) və Səudiyyə Ərəbistanı (6 saat 48 dəqiqə) yer alıb. Türkiyə həftədə ortalama 5 saat 54 dəqiqə oxuma vaxtı ilə siyahıda 18-ci yerdədir.

Azərbaycan bu reytinqə ümumiyyətlə, yaxın düşə bilmir. 2021-ci ildə Sosial Tədqiqatlar Mərkəzi 5 gün ərzində əhalinin kitab oxumaq və almaq davranışları ilə bağlı 1067 respondentlə telefon sorğusu keçirib. Sorğu bütün iqtisadi rayonları əhatə edib. Sorğuda əminlik intervalı 95.0%, statistik xəta əmsalı 3.0% təşkil edib. Sorğuda iştirak edənlərin yarısı (49.8%) adətən kitab oxuduğunu bildirib. Təxminən oxşar sayda respondentin (44%) ailəsində özündən başqa kitab oxuyan ailə üzvü yaşayır. Hər 4 respondentdən birinin son bir ildə oxuyub-bitirdiyi kitab sayı 1-3 kitab aralığındadır. Respondentlərin 6.4%-i isə 10 kitabı tam oxuyub bitirib.

Demoqrafik qruplar üzrə baxsaq, evlilərin 45.6%-i və subayların isə 72.9%-i adətən kitab oxuyur. İşləməyib, ancaq iş axtarışında olanların 61.6%-i, işləyənlərin isə 55%-i adətən kitab oxuduğunu bildirib. Yaş, təhsil və aylıq gəlir səviyyəsi artdıqca müntəzəm kitab mütaliə edənlərin sayı azalır. Məsələn, 18-25 və 26-35 yaş qruplarında müntəzəm kitab oxuyanların çəkisi müvafiq olaraq 76.5% və 52.3% təşkil edibsə, 36-65 yaş arasında olanların isə yarıdan az hissəsi kitab oxuyur.

Sorğudan da göründüyü kimi, ölkəmiz kitab oxumaqda çox geridə qalır. Ayrı-ayrı yaş qruplarına gəlincə isə göstəricilər ürəksıxıcıdır. Çünki bu göstəricilərin hər biri ayrı-ayrılıqda digər problemlərdən də qaynaqlanır. Lakin təəssüf ki, kitabdan uzaqlaşmağımızın səbəbi etiraf etsək də, etməsək də, əsasən onu sosial şəbəkələrlə əvəzləməyimizdən irəli gəlir.

### Hər 4 nəfərdən biri üçün kitab oxumaq istirahətdir

Kitab oxumaq hər zaman mənalı istirahəti təşkil edib. Həm də kitab həmişə əla müəllim olub. Bu gün kompüter, smartfonlar qarşısında gözləri kor olan gənclərin əvvəlki nümayəndələri bu təhlükədən uzaqda kitab oxumaqla gözəl istirahət edir, həm də dünyanın hər yerindən məlumat alırdılar. Bütün bunları söyləməkdə məqsəd sosial şəbəkələri gözdən salmaq deyil. Bu şəbəkələr əslində çox faydalıdır, lakin faydalı şəkildə istifadə olunarsa. Lakin biz onlardan faydalı şəkildə istifadə edirikmi? Əsla. Biz demək olar ki, bütün günümüzü tamamilə sosial şəbəkələrə həsr edirik. Günboyu bir gənc saatlarla bir sosial şəbəkədə olursa, onun həm fiziki, həm də mənəvi sağlamlığı təhlükə qarşısındadır.

Elə bu səbəbdən də yuxarıda qeyd olunan sorğuda belə bir məlumatın da yer alması maraq doğurur: texnologiyanın inkişafına baxmayaraq, mütləq əksəriyyət (81.3%) kitabları əsasən hələ də çap formasında oxuyur. 18-25 və 26-35 yaş qruplarında kitabları əsasən elektron formada oxuyanlar 21%-dən yuxarı olduğu halda, bu göstərici orta yaş qruplarında 5-10% aşağı, 65 yaşdan yuxarı isə 0% təşkil edib.

Sorğuda iştirak edən oxucuların yarısından çoxu (54.3%) kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuduğunu deyib. Yaş cəhətdən bu cavabı seçən qruplar arasında gənc və orta yaşlılarla yuxarı yaşlılar arasında ciddi fərq müşahidə edilib. Belə ki, kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuyanların 26%-i 18-25, 25%-i 26-35 və 23%-i 36-45 yaş aralıqlarındadır ki, bu da digər yaş qruplarından 2-3 dəfə daha yüksəkdir. Oxucuların təxminən üçdə biri kitablara şəxsi inkişaf üçün müraciət edir. Maraqlıdır ki, hər 4 nəfərdən biri (27%) üçün kitab oxumaq istirahət sayılır.

*Ardı Səh. 7*



# Keçmişdə qalan dəyərlərimizdən biri: kitab oxumaq

Əvvəli Səh. 6

### Vaxt yoxdur, kitab bahadır, bəhanəsi

Bəli, bu gün istənilən sorğu zamanı kitab oxumamaq üçün gətirilən bəhanələr sırasında "vaxt yoxdur, kitab bahadır" ifadələri ilə daha çox qarşılaşmaq olur. Lakin gəlin görək vaxt nə üçün yoxdur? Təbii ki, ona görə yoxdur ki, Tiktok, İnstagram, Fecebook kimi sosial şəbəkələr insanları saatlarla özünə bağlayır. Xüsusən gənclər sosial şəbəkələrə elə aludə olublar ki, təbii ki, onların kitab oxumağa vaxtları qalmayacaq.

Digər məsələ, kitab bahadır, deyirik. Bəli, bu gün ölkəmizdəki kitab satışı mağazalarında kitabların qiyməti heç də hər kəsin büdcəsinə uyğun deyil. Ötən aylarda kitab mağazalarından birindən "Əli və Nino" kitabını aldım. Qiyməti 7 manat 50 qəpik idi. Mağazada bu kitabın üç ayrı nüsxəsi vardı. Onların qiyməti mən aldığımdan baha olduğu üçün ən ucuz olanını seçdim. Düşünəndə ki, ay ərzində 10 kitab alaraq 60-70 manat xərcləməli olacaqsan, bəli, gəlirlərimizə görə bu, kimi üçün bahalı, kimi üçünsə heç də bahalı deyil. Və ölkəmizdə bu gün 32 milyon kitabxana fondu olan 2922 kütləvi kitabxana fəaliyyət göstərir ki, satışda olan kitabların əksəriyyətini oradan alıb oxuyub qaytara bilərik. Elə bu səbəbdən də kitabların bahalı olması ilə bağlı bəhanə heç də tutarlı deyil.

Lakin kitabxanalarda tapa bilmədiyimiz kitablar da var ki, onları satış mağazalarından ala bilirik. Bu səbəbdən də kitabların qiymətinin nəzarətdə saxlanması vacibdir. Hazırda tələbə-gənclər əsasən yeni tərcümə edilmiş kitabları satın alırlar ki, bu da onların büdcəsinə müvafiq deyil. Bu barədə söhbətləşdiyimiz tələbələr- Nərmin Hüseynli, Aysel Məmmədli, Yağmur Musayeva, Orxan Əlizadə, Mətin Məmmədov və Röya Həsənova kitabların baha qiymətə olmasından gileyləndilər.

Yuxarıda adıçəkilən sorğuda qeyd olunduğu kimi, kitabları dünyagörüşünü inkişaf etdirmək üçün oxuyanların demək olar ki, yarısının aylıq gəlir səviyyəsi 500 manatdan yüksək, 55%-i ali təhsilli və 54%-i hazırda işləyənlərdir.

Kitab oxumayan 536 respondentin xüsusiyyətlərinə nəzər yetirsək, yaş cəhətdən onların arasında 26-45 yaşda olanlar (49%) üstünlük təşkil edir. Kitab oxumayanlar arasında aylıq gəlir səviyyəsi 0-250 manat olanlar təxminən 50%, orta təhsillilər isə 64% çəkiyə malikdir.

Son bir ildə kitab almağa sərf edilən vəsaitə gəlincə isə nisbətən daha çox respondent (13.3%) 21-50 manat aralığında vəsait sərf edib. 18-25 yaş qrupunda bu miqdarda vəsait sərf edənlər daha çoxdur. 51-100 manat aralığında vəsait sərf edənlərin çəkisi isə cəmi 2% azdır. Bu mənada yaş qrupu cəhətdən 36-45 yaşdakı respondentlər üstünlük təşkil edir. Aylıq gəlir səviyyəsi 500 manatdan yüksək olanlar bütün xərc qruplarında üstünlük təşkil edirlər - yəni kitaba daha çox pul xərcləyirlər. Oxşar hal təhsil səviyyəsi üçün də keçərlidir - ali təhsillilər kitaba daha çox vəsait sərf edirlər.

Kitab oxumayan 536 respondentin gətirdiyi başlıca iki səbəb kimi vaxtının (63.6%) və marağının olmaması (29.6%) qarşıya çıxır. Maraqlıdır ki, olduqca az sayda respondent (5.8%) maddi imkanının kitab almağa mane olduğunu bildirib. Vaxtının olmadığını bildirənlərin 60%-i 26-45 yaş aralığındadır. Mədəni status cəhətdən bu variant daha çox evli olanlar tərəfindən seçilib (66.4%). Tamamladığı ən yüksək təhsil səviyyəsi üzrə ali təhsili olanların 77.1%-i vaxtının olmamasını kitab oxumamağın əsas səbəblərindən biri kimi göstərib. Sosial şəbəkədən hər gün istifadə edənlərin 85.5%-i vaxtının olmamasını deyib.

### Peşəkar jurnalist Güngör Uras haqlıdır

"Milliyət"dəki köşə yazısında peşəkar jurnalist Güngör Uras Türkiyədə kitab oxunması ilə bağlı haqlı gileylərini bildirib. Həmkarımız yazır: kitab oxumaq türklərin ehtiyacları siyahısında 235-ci yerdədir. Oxumaq uşaqların hava, su, yemək kimi gündəlik həyatının bir hissəsi olmalıdır ki, onlar mədəni inkişafını başa çatdırsınlar və informasiya əsrinə yetişsinlər. Türk uşaqları kitab oxumaqda Afrika ölkələrindən geri qalır. Türkiyədə hər 100 nəfərdən yalnız 4-ü kitab oxuyur.

Dünyada adambaşına kitab xərcləri 1,3 dollar olduğu halda, Türkiyədə dörddə bir dollardır. Türkiyə uşaqlara kitab hədiyyə etmək reytinqində 180 ölkə arasında 140-cı yerdədir.

Adambaşına düşən kitabların sayı 60 ildə artmayıb, əhəmiyyətli dərəcədə azalıb. Tənqid və ünsiyyət imkanlarının misilsiz genişliyinə, ali təhsil səviyyəsinə, təhsilli əhalinin on dəfə çox olmasına, xarici aləmlə qarşılıqlı əlaqənin və universitetlərin sayının artmasına baxmayaraq, savadlılıq səviyyəsi iki dəfə aşağı düşüb.

Nə olub? Türklər oxumaq vərdişini qazanıb, sonra itiriblər? İlk ağıla gələn televiziyadır... Televiziya əslində savadlı olmayan, amma özünü var kimi göstərənlər üçün bir bəhanədir. Digər tərəfdən, televiziyanın oxuyan və informasiyanın əldə edilməsində və ötürülməsində fəallıq göstərən, aktivliyini və mütaliəsini artıran insanlara təsiri var.

Bəli, həmkarımız dediklərində haqlıdır. Qonşu Türkiyədə də kitab oxumanın Azərbaycandan heç də fərqli olmayan səviyyəsi ürəkağrıdandır. Bəs nəticə necə olacaq? Bunu söyləməyin özü o qədər dəhşətlidir ki, adam qorxudan ağzına almaq istəmir. Belə isə nə edək ki, kitab oxuyaq? Bu sualı hər birimiz özümüzə verməklə, bir də dərindən düşünməklə qarşıdakı o dəhşətdən yaxa qurtarmış ola bilərik.

***Mətanət Məmmədova***

# Niyə həkim məsləhəti olmadan antibiotik qəbul etmək olmaz?

*MÜNASİBƏT*



"Antibiotiklərin təyinatını orqanizmdə infeksion xəstəliklər zamanı təyin etmək məsləhətdir". Bu sözləri SİA-ya açıqlamasında həkim-terapevt Nərminə Abbasova deyib. O bildirib ki, burada da göstəriş olmalıdır: "Xəstənin temperaturu varsa, özünü pis hiss edirsə, ümumi vəziyyətə uyğun temperatursalıcı ilə birlikdə antibiotik təyinatı vermək olar. İnfeksion xəstəliklərdə 3-5 gün ərzində qızdırma davam edir. Həmin vaxt antibiotik təyin etmək göstərişdir. Xroniki iltihabi hallarda qızdırma vermirsə həkim antibiotik təyinatı verə bilər. Təbii ki, həkim məsləhəti olmadan antibiotik qəbul etmək olmaz. Ona görə ki, antibiotik qəbul olunmasına göstərişin olub-olmadığını pasiyent özü belə bilməz. Həkim xəstənin ağırlıq dərəcəsinə uyğun olaraq antibiotik təyin edə bilər. Qalan hallarda xəstənin özbaşına antibiotik qəbul etmək ixtiyarı yoxdur. Buna Səhiyyə, həkimlər icazə vermir.

Məsləhətim bu olardı ki, həkim resepti olmadan apteklərdən antibiotik satışının qarşısı alınsın. Çünki pasiyentlər özləri yaxınlaşır, özlərinə hansısa antibiotik seçimi edərək onu alıb istifadə edirlər. Yaxud da aptekdəkilərin satışına uyğun olaraq antibiotik seçimi edirlər. Amma aptekdəkilər və alıcılar həkim deyil. Antibiotikin orqanizmə hansı zərəri vuracağını bilmədən hər kəs özü üçün bunu alır. Dünyanın müəyyən ölkələrində bu cür dərman satışı mövcuddur. Hər ölkənin səhiyyəsinin ümumi apteklərə, tibb sahəsinə, həkimlərə nəzarəti güclü olmalıdır. Güclü olsa da, apteklərdə dərman satışına nəzarət çox vacibdir. Ona görə də reseptsiz satışı təşkil edən əczaçı işçilərinə də yeri gələndə cəzalar tətbiq olunmalıdır. Pasiyentlər də sağlamlıqlarına mənfi təsirlə alacaqlar. Antibiotikləri qəbul edərkən yanlarında şok əleyhinə heç nə olmadığı halda onlar özlərinə ilk tibbi yardım belə göstərə bilməyəcəklər. Ani baş verən allergik reaksiyalardan söhbət gedir. Bunun son təhlükələrini də həkimlər yaxşı bilir. Pasiyentlər ağırlaşmış fəsadlardan xəbərsizdirlər".

"Bağırsaqlardakı mikrofloraya antibiotik birbaşa təsir edir, bizə lazım olan bakteriyaları öldürür. Bəzən illərlə insanın mədə-bağırsaq sistemində gedən pozulmuş floranı aradan qaldırmaq olmur. Bəzən antibiotiklərdən sonra ümumi ağırlaşmalar olur, amma kimsə kökündə nəyin dayandığının fərqinə varmır. Antibiotikilərin qəbulundan sonra çox orqanizmdə digər xəstəliklərin inkişafı baş verir. Mikroflora pozulubsa, gündə bir neçə dəfə böyük bayra getmə, bağırsaqda sürüşkənlik, selikli qişanın zədələnmələrinə gətirib çıxarır. Bu zədələnmələrdən sonra xoralar, sağalmayan yaralar baş verir. Düzgün qəbul olunmadığı halda yatmış xəstəliyin oyanmasına gətirir, hansı ki, sağalma ehtimalı da az olur. Selikli qişanın bərpası üçün çox uzun illər tələb olunur. Düzgün müalicə metodları, düzgün həkim ünvanına getmək tələb olunur. Bu yolların düzgün seçimini etməyəndə çox ağır və sağalmayan xəstəliklərlə cavan yaşlarda həyati təhlükələrlə rastlaşırlar.

**Qripə yoluxarkən antibiotik qəbul etmək düzgündür?**

Qrip özü də virusdur. Həmin vaxt virus əleyhinə preparatların qəbulu şərtdir. Virus əleyhinə preparatdan başqa antibakterial terapiya da məsləhət görülür. Çünki artıq simptomlar artdıqca xəstəlik gücləndikcə qızdırmadan sonra digər fəsadlar mütləq göstəriş idi. Boğazda güclü iltihabi proses başlayırdı. İnfeksiyanın aradan qalxmasına da diqqət yönəlməlidir. Yanaşı olaraq digər dərman preparatlarından da istifadə etmək olar. Eyni zamanda mikrofloranı bərpa etmək üçün probiotiklərdən istifadə etmək lazımdır ki, mikroflora pozulmasın.

Təbii antibiotiklər dedikdə tərkibində iltihab əleyhinə olan bitkilər, otlardan istifadə nəzərdə tutulur. Bunlar antibakterial təsir edir. Mikrofloraya da, infeksiyaya da müsbət təsir edir. Məsələn, mədə-bağırsaq sistemində iltihab proseslərini aradan qaldırmaq üçün çobanyastığı, nanə, bağayarpağı dəmləməsi iltihaba təsir edir, həm də spazmı aradan qaldırır.

El arasında deyirlər ki, sarımsaq yaxşı antibiotik kimi bədənə təsir edir. Ancaq selikli qişanı qıcıqlandırmamalıdır. Qəbul etdiyimiz qidaların tərkibində qrip, zökəm vaxtı sarımsaq qatqı kimi istifadə oluna bilər. Mikrobları öldürməyə təsir edir və immun sistemi də qalxır. Yenə də həmin otlardan ibarət çaylar təbii vasitələrdir. Pasiyentlərimizə birmənalı tapşırığımız odur ki, güclü göstəriş olmadan, həkimə müraciət etmədən antibiotik qəbulunu dayandırsınlar. Çünki antibiotiklərin qəbulu vaxtı nə qədər xeyrini görsələr də, onun ziyanını hələ də tam bilmirlər" - deyə o, əlavə edib.

***Söylü Ağazadə***

# "Milli Şuranın AŞPA qarşısında öhdəliyi çoxdur, Azərbaycanın isə yox"

"Milli Şuranın dərdi xalqın azadlığı, insan haqları, sərbəst toplaşmaq və ifadə azadlığı kimi hüquqlar uğrunda mübarizə aparmaq deyil. Əgər belə olsaydı bu millilikdən uzaq qurum 25-30 illik erməni işğalı dövründə bir dəfə də olsun Azərbaycan vətəndaşlarının pozulmuş fundamental hüquqlarının bərpası ilə bağlı beynəlxalq təşkilatlar qarşısında məsələ qaldırar, milli maraqlar naminə baş verənlərə siyasi qiymət verilməsinə cəhd edərdi. Amma xalqımızın taleyüklü məsələlərində bizimlə bir sırada durmayanlar, bu gün şəxsi maraqları naminə dövlətə, xalqa iftira atmaqdan çəkinmir". Bunu SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat bildirib ki, Milli Şuranın tələbləri sosial sifarişli deyil: "Onların xalqın adından danışmağa heç bir haqqı yoxdur. Radikal müxalifətlə sinxron hərəkət edən Avropa Şurası Parlament Assambleyası (AŞPA) Azərbaycana təsir imkanları tükənib deyə "5-ci kolon"unu işə salıb. Onlar güman edirdilər ki, Azərbaycan nümayəndə heyətinin mandatını bir il müddətinə məhdudlaşdırmaqla bizdən istədiklərini ala biləcəklər. Ən azından onların tələblərinə boyun əyəcək, ermənipərəst mövqelərinə göz yumacağıq. Amma belə olmadı, Azərbaycandan öhdəliklər tələb edən AŞPA-ya xatırladıldı ki, daha çox Azərbaycan onlara lazımdır. Öhdəlik məsələsinə gəlincə, AŞPA-nın da öhdəliyi var və bu, Ermənistanın işğalçı siyasətinə məhdudiyyət qoymaqdan da uzağa gedə bilərdi. Amma onlar bunun əvəzinə ölkə daxilində yeni çaxnaşmalar, təxribatlar törətməyə çalışırlar. Milli Şuranın mitinq iddiasının arxasında da beynəlxalq təşkilatlardan, o cümlədən AŞPA-dan aldığı sifariş dayanır. Bəli, Milli Şuranın AŞPA qarşısında öhdəliyi daha çoxdur, Azərbaycanın yox".



***Səbinə Hüseynli***

# Rusiyanın geosiyasi tərəfdaşı - Azərbaycan

***Azərbaycan Prezidenti İlham Əliyev Rusiya prezidenti Vladimir Putinin dəvəti ilə Moskvada işgüzar səfərdə oldu. Görüşün konstruktiv, tərəflərin milli maraqlarına cavab verən önəmli hadisə olduğunu da demək olar. Həm də prezidentlərin bir araya gəlməsinin Rusiya sülhməramlılarının Azərbaycan ərazilərindən çıxarılmağa başlandığı gündən iki gün sonraya təsadüf etməsi bir çox mətləblərə aydınlıq gətirir. Burada ilk diqqəti cəlb edən Azərbaycan Prezidenti İlham Əliyevin qrosmeystersayağı və zərgər dəqiqliyi ilə ölçülüb-biçilmiş regional siyasətidir. Cənab Prezidentin gedişləri o qədər sərrastdır ki, sanki bu əvvəlcədən hazırlanmış ssenaridir. Amma cənab İlham Əliyevin də dediyi kimi, nəyin nə zaman ediləcəyini Prezidentimiz daha yaxşı bilir.***

Bu siyasətin kökü 20 il əvvələ gedib çıxır. Hakimiyyətə gəldiyi ilk gündən Prezident İlham Əliyev xalqının, dövlətinin maraqlarını hər şeydən üstün tutub və prinsipiallığı, özünə inamı sayəsində qələbələrini sıralayıb.

Adətən xalq, kütlə radikal olur, bu dəfə isə İlham Əliyev bütün hadisələrdə hər kəsdən bir neçə addım öndə olub, hər kəsi qabaqlayıb. Hətta çevik reaksiyası ilə regional aktorluğa can atan ölkələri pat vəziyyətinə salıb. Avropa ölkələrinin Cənubi Qafqaz siyasətində Azərbaycanın önəmini ortaya qoyub, ölkəmizin xeyir-duası, imzası, razılığı olmadan hər hansı layihənin reallaşa bilməyəcəyini dəfələrlə sübuta yetirib. Azərbaycan Orta Dəhliz kimi tanınan Şərq-Qərb nəqliyyat arteriyasının nəbzidir, döyünmədiyi halda bütün proses, həyat dayanmış olar. Bunu bütün iştirakçı dövlətlər də bilir, amma Fransanın timsalında Qərbin bəzi ölkələri Ermənistan üzərindən oyunlar quraraq axına qarşı üzməyi planlasalar da, yenə Azərbaycana möhtac duruma düşüblər. Azərbaycanın razılığı olmadan heç bir layihənin həyata vəsiqə qazana bilməyəcəyini anlamağa başlayıblar. Fransanın Azərbaycandakı səfirinin məsləhətləşmək üçün tələsik geri çağrılması Prisin gizli planlarını ifşa edib.

...2003-cü ildə prezidentliyə başlayandan indiyədək İlham Əliyev Rusiyaya 50 dəfədən çox səfər edib. Səfərlərin əhəmiyyətli hissəsi MDB çərçivəsində baş verən hadisələr və Ermənistan-Azərbaycan münaqişəsinin həlli ilə bağlı olub. Bundan əlavə, İlham Əliyevlə Vladimir Putin arasında telefon danışıqları da mütəmadi olaraq aparılır. Belə ki, 2024-cü ilin fevral və mart aylarında prezident seçkilərində qazandıqları inamlı qələbələr münasibətilə bir-birlərini təbrik ediblər. Martın sonunda İlham Əliyev ”Krokus Siti Holl”da baş vermiş terror aktı ilə bağlı Putinə başsağlığı verib və terror aktını qətiyyətlə pisləyib.

Rusiya və Azərbaycan dövlət başçılarının hazırkı görüşü Rusiya sülhməramlılarının 2020-ci ilin noyabrından yerləşdirildikləri Qarabağdan çıxarılmasının başlanmasından və Ermənistan-Azərbaycan sərhədinin 1991-ci il MDB-nin məqsədləri və prinsipləri haqqında Alma-Ata Bəyannaməsinə uyğun olaraq delimitasiyası prosesinin başlanmasından az sonra baş tutub. Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskovun dediyi kimi, Putinlə Ermənistanın baş naziri Nikol Paşinyan da yaxın vaxtlarda danışmaq imkanı əldə edəcək. Görünür, söhbət mayın 7-də nəzərdə tutulan Rusiya liderinin andiçmə mərasimindən, mayın 8-də keçiriləcək Avrasiya İqtisadi İttifaqının (AİI) sammitindən və mayın 9-da Qələbə gününün qeyd olunmasından gedir.

Bu görüşün hər iki tərəf üçün əhəmiyyətini şərtləndirən daha bir mühüm amil var. Qərb mətbuatının yazdığına görə, Dina Titusun başçılıq etdiyi bir qrup amerikalı konqresmen bu həftə Azərbaycana qarşı sanksiyalarla bağlı qanun layihəsini təqdim etməyi planlaşdırır. Bu barədə Konqresdəki mənbələrdən məlumat verilib. Qanun layihəsi Bayden administrasiyasını 180 gün ərzində ABŞ qanunlarına əsasən təyin edilmiş şəxslər qrupuna qarşı sanksiyalarla bağlı qərar verməyə çağıracaq. Belə bir qanun layihəsinin qəbulu ”hakimiyyətin müxalifətə qarşı amansız repressiyaları və Azərbaycanda insan haqlarının pozulmasından ciddi narahatlığı” kimi absurd iddialarla izah olunur. Belə ki, qanun layihəsində erməni məhbusların hüquqlarının pozulmasından bəhs edilir. Bu, ”Azərbaycan hökumətinin insan hüquqlarına sadiqliyini və ədalətli və davamlı sülh danışıqları aparmaq qabiliyyətini ciddi sual altına qoyur”, - sənəddə deyilir.





Bütün bunların fonunda Rusiya və Azərbaycan liderlərinin görüşü artıq sadəcə qonşu münasibəti deyil, geosiyasi kontekst qazanır. ”Rusiya və Azərbaycanın Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik baxımından qarşılıqlı fəaliyyətindən də çox şey asılıdır. Biz isə etimad, əməkdaşlıq, qarşılıqlı anlaşma tədbirlərinin gücləndirilməsinə və bütün məsələlərin qarşılıqlı fəaliyyət və qarşılıqlı maraqlar ruhunda həllinə yönəlmişik”, - deyə Azərbaycan Prezidenti danışıqlarda qeyd edib.



Öz növbəsində Putin əvvəlcə Heydər Əliyevin BAM-ın tikintisinə mühüm töhfəsini qeyd edib. O, həmçinin xatırladıb ki, ölkələr arasında ticarət dövriyyəsi 4 milyard dollara çatıb, Rusiyadan Azərbaycana yatırılan investisiyalar isə 6 milyard dollar təşkil edib. Çox güman ki, BAM-ın tikintisinin başlanmasının 50 illiyi ikitərəfli münasibətləri və regional gündəliyi müzakirə etmək üçün yaxşı məlumat fürsəti oldu, xüsusən də son vaxtlar Cənubi Qafqazda baş verənləri xatırlasaq. Əslində, Rusiya və Azərbaycanın əsas rol oynayacağı yeni təhlükəsizlik sistemi yaranır. Digər tərəfdən, Heydər Əliyevlə birlikdə işləyənlərin çoxu onun BAM-ın tikintisinə verdiyi töhfəni qeyd edirdilər ki, bu da Rusiyanın Şərqə üz tutma siyasəti fonunda xüsusi aktuallıq kəsb edir.

Bu arada Peskov bəyan edib ki, Azərbaycan Rusiya üçün böyük qonşu, dost, tərəfdaş və müttəfiqdir. ”Bu münasibətləri hər cür davam etdirmək və inkişaf etdirmək üçün hər iki tərəfdə siyasi iradə var”, deyə o vurğulayıb. Xüsusilə, Peskov sözlərinə görə, bu, iqtisadi potensiala aiddir, çünki Rusiya Bakının İtaliya və Türkiyədən sonra üçüncü ən böyük ticarət tərəfdaşıdır. Son zamanlar Azərbaycanın Qərb dövlətləri ilə münasibətləri möhkəmlik baxımından sınaqdan keçirilir. Məsələn, Bakı AŞPA-dakı üzvlüyünü dondurub və təşkilatın ermənipərəst mövqeyinə görə Avropa Şurasından çıxmaqla hədələyir. Fransa ”Azərbaycanın son aylarda ikitərəfli münasibətlərə xələl gətirən davamlı hərəkətləri” səbəbindən öz səfirini məsləhətləşmələr üçün Bakıdan geri çağırıb. Həmçinin, Dina Titusun başçılıq etdiyi bir qrup amerikalı konqresmen bu həftə ”Dağlıq Qarabağda etnik təmizləmə” ilə əlaqədar respublikaya qarşı sanksiyalar haqqında qanun layihəsini təqdim etməyi planlaşdırır.

Bununla belə, Rusiya-Azərbaycan münasibətlərində mənfiyə doğru heç bir dəyişiklik yoxdur. Azərbaycan prezidenti İlham Əliyev Bakı və Moskvanın Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizi çərçivəsində həyata keçirməyi planlaşdırdıqları ”daha bir möhtəşəm layihə” elan edib. ”Şimal-Cənub nəqliyyat dəhlizinə gəlincə, bu gün Vladimir Vladimiroviçlə mən bu məsələni bir daha ətraflı müzakirə etdik. Hökumət üzvlərinə müvafiq tapşırıqlar verilib. Əminəm ki, yaxın vaxtlarda bütün məsələlər razılaşdırılacaq və biz daha bir möhtəşəm layihənin həyata keçirilməsinə başlayacağıq”, - İlham Əliyev Rusiya Prezidenti Vladimir Putinlə BAM-ın veteran inşaatçıları ilə görüşündə deyib.

O bildirib ki, Azərbaycan ərazisində Azərbaycan-Rusiya sərhədini Azərbaycan və İran sərhədi ilə birləşdirən dəmir yolu xətti var. ”Lakin yükgöndərənlərin ehtiyacları bizə bu yolun yeni hissələrinin tikilməsi zərurətini diktə edir ki, biz yükdaşımaları artıra bilək və bununla da Şimaldan Hind okeanına unikal nəqliyyat marşrutunu təmin edək”, - Azərbaycan Prezidenti vurğulayıb.

Qafqazda təhlükəsizlik...

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya prezidenti Vladimir Putinlə görüşündə bildirib ki, ölkələrimiz Qafqazda regional təhlükəsizliyin təmin edilməsində fundamental rol oynayırlar, iki ölkə arasında münasibətlər yüksək səviyyədədir və inkişaf etməkdə davam edir: ”Bizim görüşlərimizin gündəliyində regional təhlükəsizlik məsələləri daima yer alır və biz onların həllindən məmnunuq. Ölkələrimiz arasında qarşılıqlı fəaliyyətdən çox şey asılıdır”.

Vladimir Putin bildirib ki, Rusiya ilə Azərbaycan arasında ticarət dövriyyəsi 4 milyard dolları ötüb, Azərbaycan iqtisadiyyatına Rusiya investisiyaları isə 6 milyard dollar təşkil edib: ”Hökumətlərarası komissiya fəal işləyir və əməkdaşlığın bir çox maraqlı istiqamətləri var - həm real sektorda, iqtisadiyyatda və infrastrukturda”. Rusiya prezidenti xatırladıb ki, liderlərin görüşü Heydər Əliyevin rəhbərlik etdiyi Baykal-Amur magistralının tikintisinin başlanmasının 50 illiyi ərəfəsində keçirilir. ”Mən əminəm ki, atanızın bu nəhəng layihənin həyata keçirilməsinə sərf etdiyi bütün səylər və əmək illəri bu gün də təkcə Rusiya üçün deyil, həm də MDB üçün mühüm rol oynayır”, - deyə Vladimir Putin bildirib.

Bəli, Azərbaycan nəinki Cənubi Qafqazın, o cümlədən dünyanın nüfuzlu ölkələrindəndir. İri layihələrin təşəbbüskarı və icraçısıdır. Bu səviyyəyə çatması üçün ölkəmiz çətin sınaqlardan keçib, Ermənistanın 25 illik işğalına 44 gündə son qoyub, super güclərin bir arada olduğu beynəlxalq təşkilatın bacarmadığını təkbaşına edib. Dünya birliyi tərəfindən tanınmış ərazilərinin hər qarışında suverenliyini bərpa edib.

**V.VƏLİYEV**

# "COP29 turizmin inkişafına töhfə verəcək"




"Dünyanın ən böyük beynəlxalq konfransı hesab edilən BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının - COP29-un 2024-cü ildə Azərbaycanda keçirilməsi ilə bağlı qəbul olunmuş qərar olduqca mühüm əhəmiyyət daşıyır. Bu, bir çox nüfuzlu beynəlxalq tədbirlərə ən yüksək səviyyədə ev sahibliyi etmiş ölkəmizə olan beynəlxalq etimadın növbəti göstəricisidir və Azərbaycanın daha da artan nüfuzunu nümayiş etdirir. 180-dən çox dövlətin nümayəndəsinin iştirak edəcəyi bu nəhəng tədbirdə ətraf mühitin mühafizəsi, ekologiya, "yaşıl enerji" sahələrində ixtisaslaşan qurumların təmsilçilərinin geniş müzakirəsi bu sahələrə sərmayə axıcılığını stimullaşdırır, "yaşıl iqtisadiyyat" quruculuğu yolunda təşəbbüsləri bir araya gətirir. Bu baxımdan COP29 sammiti Azərbaycanın etibarlı tərəfdaş ölkə kimi dünyada açıq təşəbbüslərin açıq məkanına çevrilməsini şərtləndirməklə, gələcək yeni enerji proqramlarında bölgənin aparıcı sərmayə nöqtəsinə çevrilməsini də təmin edəcək". Bu sözləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib.



Millət vəkili qeyd edib ki, alternativ enerji ilə bağlı layihələr və "yaşıl enerji"nin dünya bazarına nəqli Azərbaycanın enerji siyasətində prioritet sahələrdən biridir və bu siyasət nəticə etibarilə Avropadakı tərəfdaşlarımızın maraqlarına xidmət edir: "Bu mötəbər tədbirin "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçirilməsi nəticəsində Azərbaycan özünün ən müsbət tərəflərini dünyaya çatdıra biləcək. Eyni zamanda, ölkəmiz həmin istiqamətlər üzrə yaxın bir neçə 10 illiyə hesablanmış yeni siyasətin formalaşdırılması üçün çox əlverişli imkanlar qazanacaq. Yəni, bu baxımdan düşünürəm ki, konfrans çox əhəmiyyətli tədbirdir. "Yaşıl dünya naminə həmrəylik ili"ndə isə Azərbaycanın bütün dövlət, özəl qurumları bu və ya digər formada birbaşa və ya dolayı ilə adıçəkilən proseslərdə fəal iştirak etməklə dövlətin bununla bağlı mövcud siyasətinə də dəstək vermiş olacaqlar".



A.Hüseynov bildirib ki, COP29-a beynəlxalq nəhəng iqtisadi tədqiqat və investisiya mərkəzlərinin, maliyyə institutlarının da böyük marağı vardır: "Onların sırasında Dünya Bankının (DB) xüsusi dəstəyi mövcuddur və Azərbaycan arasında faydalı münasibətlər fonunda DB-nin bu zirvə görüşü prosesində ölkəmizdə hərtərəfli dəstək göstərəcəyi şübhəsizdir. DB "yaşıl iqtisadiyyat" böyük önəm verir, sərmayələr cəlb edir. Xüsusilə ətraf mühitin mühafizəsi, ekologiya, "yaşıl enerji" sahələrində ixtisaslaşan qurumlarla sıx əməkdaşlıq edir, iqlim dəyişmələrinə həsr edilmiş konfranslara dəstək verir. Azərbaycanın da hədəfləri bu istiqamətə yönəlib, "yaşıl iqtisadiyyat" quruculuğu istiqamətində davamlı proqramlara start verilib, 2024-cü il "Yaşıl dünya naminə həmrəylik ili" elna olunub. Ona görə də DB-nin COP29 ili çərçivəsində ölkəmizlə üst-üstə düşən hədəf prioritetlərinə dəstək verəcəyi istisna deyil, bank artıq bu barədə öz niyyətini bəyan edib. Azərbaycanın ev sahibliyi edəcəyi COP29 turizmin inkişafına da töhfə verəcək. Bir aya yaxın dövrdə 80 mindən çox turistin Azərbaycanda olması iaşə sektorunun, xidmət və turizmin əlavə dividentlər qazanması deməkdir".

***Ləman Sərraf***

MÜNASİBƏT

# "Magistr təhsili nəinki ölkəmizdə..."

## *EKSPERT AÇIQLADI*



"Magistr təhsili nəinki ölkəmizdə, dünyanın hər bir yerində əhəmiyyət daşıyır. Çünki magistr təhsili bakalavr təhsilindən daha üstün təhsildir və ixtisaslaşma baxımından daha əhəmiyyətlidir. Bütövlükdə bakalavr təhsilindən fərqli olaraq, həm də magistr təhsilində ixtisasa dair daha dərin biliklər verilir, eyni zamanda magistraturada oxuyanlar tədqiqatda ilk addımlarını atırlar. Bütün bunlar magistr təhsilinin əhəmiyyətini göstərir". Bu sözləri SİA-ya açıqlamasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi yanında İctimai Şuranın üzvü, fəlsəfə doktoru İlqar Orucov deyib.

İ.Orucov bildirib ki, işə qəbul zamanı magistr təhsilinin üstünlüyü var: "Çünki işə qəbul zamanı magistr təhsilinə önəm verilməsinin səbəbi burada məzunların aldıqları biliklərin bakalavr təhsilində aldıqları biliklərdən daha dərin olmasıdır. Bu səbəbdən də işə qəbul zamanı qatıldıqları müsabiqədə uğur əldə etməyə daha yaxın olurlar. Magistr təhsili zamanı ixtisasdəyişmə və ya bakalavr təhsilini davam etdirmək isə fərdin istəyinə və məqsədinə bağlıdır. Hər bir ixtisas vacibdir və ixtisaslar müvafiq qurumlar tərəfindən əmək bazarı araşdırılaraq, hazırlanır. Bu baxımdan bütün ixtisaslar önəmlidir. Əsas olan gənclərin ixtisaslarını peşəkar şəkildə mənimsəməsidir".

***Səbinə Hüseynli***



MƏTANƏT

# Allah dırnaq verdi, biz onu caynağa çevirdik...

**Tanrı insanı yaradıb və ona məsləhəti daxilində məxsusilik verib. Bu məxsusiliklə insan digər canlılardan tamamilə fərqlənib. Məsələn, Ulu Yaradan bəzi heyvanlara caynaq verdiyi halda, insana sadəcə dırnaq verib. Ona görə dırnaq verib ki, insanı caynağa ehtiyacı olmadan yaradıb. Ona əl-qol, barmaqlar verib ki, istənilən işi onların köməkliyi ilə görə bilsin. Dırnaqların özü də bəzi işləri görməklə yanaşı, həm də barmaqların ucunu qorumaq üçün nəzərdə tutulub.**

Lakin zaman-zaman insan övladı Yaradanın ona bəxş etdiklərini artıq bəyənməməyə başladı. Allah bizi qaradərili yaratdığı halda, biz ağdərili olmaq istədik və olduq. Allah bizi qarasaçlı yaratdığı halda, biz bunu bəyənməyib sarı saçlarla əvəzləşdirdik. Yaradanın verdiyi burunu dəyişdik, yanağı ayrı formaya saldıq, dodaqlara dolğu ilə əlavələr etdik. Bədənimizin istənilən yerinə əməliyyatlar tətbiq etməklə, onu yeni bir formaya saldıq.

Və dırnaqlarımız da eynilə, bu müasirlik və yeniliyin, dəbin qurbanına çevrildi. Ən dəhşətlisi də elə bu oldu. Allah bizə dırnaq verdi, bizi heyvanlardan fərqləndirdi. Onlara caynağı ona görə verdi ki, yem tapıb yeyə bilsinlər, yeri gələndə özlərini müdafiə etsinlər. Lakin biz bu caynağı da onlara çox gördük. Bəzi heyvanları öldürüb dərisini əynimizə geyindiyimiz kimi, paltarını papaq edib başımıza qoyduğumuz kimi, caynağını da ondan aldıq.

Beləliklə, Allahın bizə bəxş etdiyi dırnağı bəyənməyib onu caynaqla əvəzləşdirdik. İndi tez-tez caynaqla gəzən qadınlarla rastlaşmaq olur. Xüsusilə marketlərdə kassa önündə qəpik pulları caynaqları ilə götürə bilməyən qadınları görmək olur. Gənc qızlar var ki, təsadüfən yanından ötəndə saçına sığal çəkərsə, caynaqlarının sənin gözlərini tökməsi təhlükəsi var.

Metroda da bu caynaqlı qızları tez-tez görmək mümkündür. Yolu ötərkən avtomobilin içərisində rolu tutan belə caynaqları da görmək olur. Yəni hər yerdə belə caynaqlı qızlarla qarşılaşmaq mümkündür. Onlara baxdıqca adamın ürəyinə ağırlıq çökür. Nə çantalarını aça bilir, nə telefonu tuta bilirlər. Hələ telefonda mesaj yazarkən adamın onlara, sözün həqiqi mənasında, yazığı gəlir. Bir zillət çəkirlər, zülmlə yazırlar ki, gəl, görəsən. Lakin bu caynaqlar onlar üçün o qədər vazkeçilməzdir ki, bu qədər çətinliyə sinə gərir, lakin caynağı dırnaqla əvəz etməyi düşünmürlər.

Dəfələrlə belə gənc qızlara yardım etməyə çalışmışam. Məsələn, kassa qarşısında da, yolda bir əşyaları yerə düşəndə mücadilə edib onu götürə bilmədiklərini görərkən əyilib qaldırıb vermişəm də. Baxmayaraq ki, bu caynaq sahibləri məndən dəfələrlə az yaşda olublar. Ona görə etmişəm ki, onlara yazığım gəlir. Ona görə yazığım gəlir ki, ağıllarını itirmiş varlıq hesab edirəm. Onların köməyə ehtiyacı olduğunu düşünürəm. Caynaq daşıdıqları üçün sanki bir əlillik qazanıblar həyatdan. İş görmək, əllərini istifadə etmək qabiliyyətindən məhrum olublar. Bu məhrumiyyət isə ağlın məhrumiyyəti ilə nəsib olub onlara. Bu səbəbdən də belələrinə acımayıb, nə edəsən?..

Bizim cəmiyyətimizdə dəhşətli olan odur ki, xüsusilə gənc qızlar bir-birinə bəhsəbəhslə yaşayırlar. "O, etdi, mən də edim" iddiası bu gün o həddə çatıb ki, bəzi gənc qızlar artıq özlüyündən çıxıb, başqası olub. Yəqin ki, onlar böyük sözü də dinləmir ki, dırnaqlar bu hala düşür. Yəqin evlərdə anaları onlara yemək yeməkdə, şəxsi gigiyena işlərində kömək edir, yoxsa bunu onların özlərinin etməsi mümkünsüzdür.

Bəli, Allah bizə dırnaq verdi, biz isə bəyənməyib onu caynağa çevirdik. Və ətrafımızdakı insanlardan yardım dilənməyə başladıq. Hansı ki, bu caynağı heyvanlara verib dağa-daşa, çölə-düzə buraxmışdı ki, yem tapmaqda, yeməkdə, özlərini mühafizə etməkdə, gigiyena işlərini həyata keçirməkdə ondan istifadə etsinlər. Lakin biz bu caynaqlar vasitəsilə heyvanların etdiyinin birini belə edə bilmirik. Bu caynaqlar sadəcə bizim "dəbli" olduğumuzu, öz düşüncəmizə əsasən gözəl göründüyümüzü anladır ətrafa. Odur ki, çox təəssüflər olsun. Hələ qarşıda bir evdə gəlin, ana olacaqlarını düşündüyümüz bu qızlar üçün dəfələrlə təəssüflər...

# "Azərbaycan-Rusiya münasibətləri dostluq, qarşılıqlı anlaşma və möhkəm təmələ əsaslanır"

***Azərbaycanın xarici siyasətinin əsas tərkib hissəsi olan ikitərəfli əməkdaşlıq istiqamətində qazanılan uğurlar davamlılığı ilə diqqətdədir. İkitərəfli münasibətlərin inkişafı öz növbəsində yeni əməkdaşlıq formatlarının yaranmasına, əlaqələrin coğrafiyasının genişləndirilməsinə öz müsbət təsirini göstərir. Şübhəsiz ki, əməkdaşlığın möhkəmləndirilməsində qarşılıqlı səfərlər, bu zaman imzalanan sənədlər, keçirilən görüşlərdə müzakirə olunan və gündəmə gətirilən məsələlər mühüm rol oynayır.***





Bu baxımdan dövlət başçısı İlham Əliyevin aprelin 22-də Rusiya Federasiyasına işgüzar səfəri, Rusiya Prezidenti Vladimir Putin ilə təkbətək görüşündə, həmçinin Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə dəmir yolu sahəsinin veteranları və işçiləri ilə birgə görüşdəki çıxışında səsləndirilən fikirlər iki ölkə arasında münasibətlərin dünəninə, bu gününə və gələcəyinə bir daha işıq saldı. Məlumdur ki, Azərbaycan-Rusiya münasibətləri dostluq, qarşılıqlı anlaşma, qarşılıqlı dəstək və məqsədyönlülük kimi möhkəm təmələ əsaslanır. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, biz təkcə böyük nəqliyyat layihələri həyata keçirmir, həm də Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin yaradılmasında fəal iştirak edir, həm iqtisadi, həm siyasi, enerji, humanitar və bir çox digər sahələrdə fəal əməkdaşlıq aparırıq. Bu mühüm məqam da xüsusi vurğulandı ki, hazırda 50 illik yubileyi qeyd olunan bu nəhəng layihənin həyata keçirilməsində Ümummilli Lider Heydər Əliyevin böyük rolu olub. Dövlətimizin başçısı sözügedən görüşdəki çıxışında bu mühüm məqamı xüsusi qeyd etdi ki, Heydər Əliyev amili dövlətlərarası münasibətlərimizdə həmişə mühüm rol oynayıb və oynayacaq. Çünki o, Kremldə işlədiyi illərdə sovet dövlətinin və ona tapşırılan sahənin inkişafına rəvac verməklə üçün böyük səylər göstərib. Onlardan biri də nəqliyyat sahəsi idi. Fəxr edirik ki, Azərbaycan inşaatçıları və mütəxəssisləri də bu nəhəng layihənin tikintisində fəal iştirak ediblər. Tarixin müxtəlif məqamları ölkələrimizi, xalqlarımızı daha da yaxınlaşdırır, münasibətlərimizin gələcəkdə də ardıcıl inkişafına töhfə verir.Bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Xətai rayon təşkilatının sədri, siyasi elmlər doktoru, professor Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.Vüqar Rəhimzadə vurğulayıb ki, ölkələrimizin qarşılıqlı əlaqələrində siyasi münasibətlər mühüm yer tutur. Dövlət başçısı İlham Əliyev çıxışında bu reallığı da xüsusi vurğuladı ki, 2000-ci illərin əvvəllərində ölkələrimiz arasındakı dostluq və mehriban qonşuluq münasibətlərinin əsasını məhz Rusiya Prezidenti Vladimir Putin və Ulu Öndər Heydər Əliyev qoyublar. Vladimir Putinin 2001-ci ildə Azərbaycana, Ümummilli Lider Heydər Əliyevin 2002-ci ildə Rusiyaya dövlət səfəri bu gün birlikdə şahidi olduğumuz böyük yolun başlanğıcı olub. Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda siyasi hakimiyyətə qayıdışından sonra ölkələrimiz arasında münasibətlərin ən yüksək səviyyədə inkişaf etdirilməsinə başlanıldı. Müstəqillik tariximizdə iki ölkənin əlaqələrinin inkişafına xidmət edən sənədlərin say tərkibinin çoxluğu da bu dostluğun, müttəfiqliyin möhkəm təmələ əsaslandığını təsdiqləyir. Ulu Öndər Heydər Əliyevin hakimiyyəti dövründə Rusiya Federasiyası ilə Azərbaycan Respublikası arasında 1997-ci ildə imzalanan "Dostluq, əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında Müqavilə" əlaqələrimizdə yeni səhifə açdı. 2002-ci ildə Ulu Öndər Heydər Əliyevin Rusiyaya dövlət səfəri zamanı imzalanan "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında Xəzər dənizində əməkdaşlıq prinsipləri haqqında Birgə Bəyannamə" Xəzərin hüquqi statusunun müəyyənləşdirilməsi baxımından mühüm sənəd oldu. Bu sənəd Rusiya-Azərbaycan münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsində inkişafını nümayiş etdirdi.

YAP Xətai rayon təşkilatının sədri onu da vurğulayıb ki, Azərbaycanın xarici siyasətinin əsas məsələləri olan keçmiş Qarabağ münaqişəsinin, həmçinin Xəzərin hüquqi statusu məsələsinin həllində Rusiyanın dəstəyi dövlətimiz tərəfindən yüksək dəyərləndirilir. Hər iki ölkənin dövlət başçıları ikitərəfli əlaqələrin genişləndirilməsini vacib amil kimi diqqət mərkəzində saxlayırlar. Belə ki, 2022-ci ilin fevralında Moskvada Azərbaycan və Rusiya prezidentlərinin imzaladıqları "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında" Bəyannamə xalqlarımız arasında tarixi dostluq və mehriban qonşuluq ənənələrinə, dərin mədəni və humanitar əlaqələrə əsaslanaraq, dövlətlərarası münasibətlərimizi keyfiyyətcə yeni - müttəfiqlik səviyyəsinə qaldırdı. Siyasi münasibətlərin ən yüksək səviyyədə inkişaf etdirilməsi iqtisadi münasibətlərin genişləndirilməsinə də müsbət təsirini göstərir.

Vüqar Rəhimzadə bildirib ki, iki ölkə arasında bugünədək imzalanan 260 sənəd, mütəmadi qaydada keçirilən iqtisadi forum və konfranslar ikitərəfli münasibətlərin inkişafında həlledici rol oynayır. Azərbaycan və Rusiya prezidentlərinin təkbətək görüşündə ikitərəfli əlaqələrin gündəliyinin zənginliyi xüsusi qeyd edildi. Bildirildi ki, Azərbaycan-Rusiya ticarət-iqtisadi əlaqələrinin dayanıqlı inkişaf dinamikası təmin edilir. 2017-ci illə müqayisədə ticarət dövriyyəsi iki dəfədən çox artaraq, ötən il 4,5 milyard dollara çatıb. Bununla yanaşı, 2023-cü ildə iki ölkə arasında ümumi yük daşımalarının həcmi 2017-ci illə müqayisədə 87 faiz, tranzit yüklərin həcmi dörd dəfəyə yaxın artıb. Həmçinin Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi ilə yük daşımaları 2017-ci illə müqayisədə 44 faizdən çox olub. Rusiyanın Azərbaycandakı şirkətləri yeni istehsal sahələri, xidmət mərkəzləri yaradaraq, sənaye sahəsində daha geniş əməkdaşlığa töhfə verirlər.

YAP Xətai rayon təşkilatının sədri onu da vurğulayıb ki, ölkələrimiz arasında əlaqələrin sürətli inkişafının qarşıdakı dövrdə də uğurla davam etdirilməsi və daha da genişləndirilməsi məqsədilə bu ilin yanvarında "Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsi" imzalandı. İki ölkənin əlaqələrinin hərtərəfli inkişafı üçün geniş imkanlar mövcuddur. Dövlət başçısı İlham Əliyev sözügedən görüşlərdə bu məqama da xüsusi diqqət yönəltdi ki, regional təhlükəsizlik məsələləri həmişə aktualdır. Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir. Ölkələrimiz arasında əməkdaşlıqdan, qarşılıqlı fəaliyyətdən çox şey asılıdır. Qarşılıqlı fəaliyyət və qarşılıqlı maraqlar ruhunda etimad tədbirlərinin, əməkdaşlığın, qarşılıqlı anlaşmanın möhkəmləndirilməsinə və bütün məsələlərin nizamlanmasına çalışırıq. Bu əminlik də ifadə edildi ki, görüş münasibətlərimizin inkişafına yeni təkan verəcək.

Vüqar Rəhimzadə bu mühüm məqamı xüsusi qeyd edib ki, Azərbaycan-Rusiya münasibətləri dövlət başçılarının siyasi iradəsinə uyğun olaraq sürətlə inkişaf etdirilir.

## Azərbaycanda "Sığorta ödənişinin verilməsi Qaydası" dəyişdi – yenilik nədir?

***Nazirlər Kabineti 29 dekabr 2017-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Sığorta ödənişinin verilməsi Qaydası"nda dəyişiklik edib. SİA xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov yeni qərar imzalayıb.***



Qərara əsasən, bundan sonra himayəsində 18 yaşa çatmamış uşaq olan (əyani təhsil alan tələbələr və şagirdlər təhsili bitirənə qədər, lakin 23 yaşından çox olmamaqla) şəxslərin (ər-arvadın hər ikisinə sığorta ödənişi təyin edildikdə, onlardan birinin) əsas sığorta ödənişinin məbləği hər uşağa görə sığorta ödənişinin 5 %-i məbləğində artırılacaq. İndiyə qədər artım ümumilikdə 20 %-dən çox ola bilməzdi.

Bundan başqa, "İşsizlikdən sığorta haqqında" qanunun 13.2.3-cü maddəsində nəzərdə tutulan halda sığorta hadisəsinin baş verdiyi tarixdən əvvəlki ardıcıl gələn 36 təqvim ayı ərzində müddətli əmək müqaviləsi ("Məşğulluq haqqında" qanuna uyğun olaraq, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən haqqı ödənilən ictimai işlərin təşkili istisna olmaqla) üzrə ən azı 24 ay sığorta stajına malik olan əmək qabiliyyətli şəxslərə işsiz kimi qeydiyyata alındığı tarixdən 3 ay sonra minimum sığorta ödənişi təyin edilir. Bu halda sığorta ödənişinin müddəti 3 ay təşkil edir və hər ay üçün bərabər məbləğdə ödənilir. Xatırladaq ki, indiyə qədər sığorta stajı azı 30 ay olmalı idi.

## "Şuşada keçiriləcək tədbirlər siyasi, tarixi əhəmiyyət kəsb edəcək"

*RƏY*

**"İslam Əməkdaşlıq Təşkilatında Azərbaycanın önəmli rolu var. Azərbaycan ümumilikdə İslam Həmrəylik Hərəkatının formalaşmasına öz töhfələrini verir, təşkilatın institutlaşmasında mühüm rol oynayır. Eyni zamanda Azərbaycanın müxtəlif beynəlxalq müstəvilərdə fəaliyyətinə İslam Həmrəliyi çərçivəsində ciddi dəstək var". Bu sözləri SİA-ya açıqlamasında siyasi ekspert Aydın Quliyev deyib.**

A.Quliyev bildirib ki, Şuşa şəhərinin "İslam Əməkdaşlıq Təşkilatının gənclər paytaxtı" seçilməsi olduqca əhəmiyyətlidir: "Çünki bu həm Azərbaycanın İslam həmrəyliyinə töhfəsi baxımından qiymətlidir, həm də



Qarabağ münaqişəsinin həllindən sonra yaranmış reallıqların dünyaya təqdimatı aspektində yeni şanslar açmış olacaq. Azərbaycanın İslam Əməkdaşlıq Təşkilatının Gənclər Birliyinin inkişafında ciddi və vacib addımları var.

Şuşa şəhəri Azərbaycanın mədəniyyət paytaxtı olmaqla dünya üçün mühüm əhəmiyyət kəsb edir. Çünki Şuşa ilə bağlı ermənilərin həyata keçirə bilmədikləri, amma bütün dünyaya bəlli olan təxribatçı addımları bizim qədər, İslam ölkələrini də narahat edib. Bu mənada Şuşada keçiriləcək tədbirlər siyasi, tarixi əhəmiyyət kəsb edəcək. Müxtəlif müsəlman ölkələrinin gənclərinin Şuşa şəhərinə gəlməsi və burada müxtəlifin tədbirlərin keçirilməsi mühüm əhəmiyyət kəsb edir. Bu həm də gənclərin Azərbaycanı daha yaxından tanımalarına şərait yaratmış olacaq".

***Səbinə Hüseynli***

# Yaz-yay sezonunda hansı rənglər dəbdə olacaq?

Yaz-yay dövrünün enerjisini daşıyan rəngləri kəşf etməyə hazır olun.

SİA 2024-ün yaz-yay aylarında trend olan rəngləri ilə bağlı araşdırma aparıb.

## Rooibos çayı qırmızısı

Payız-qış mövsümündə qarderoblarımızı



dolduran qırmızı və tünd qırmızı tonlar yaz-yay mövsümündə də təsirli olmağa davam edəcək. Bu mövsüm daha torpaq rəngi ilə görəcəyimiz qırmızının bu tonu "zəngin, odunsu notlarla dolu" Rooibos Çayıdır.

## Portağal şirəsi

Çəhrayıları əvəz edən qırmızılardan sonra qırmızıları əvəz edəcək və artıq mövsümün ən trend rənglərindən birinə çevrilən



rəng narıncıdır. Şirin və bir qədər kəskin qırmızı-portağal çalarları olan Portağal şirəsi meyvəli sitrus toxunuşuna malikdir və paltarlarda yazın təzələyici, təravətli enerjisini ən yaxşı əks etdirən rənglərdən biri olacaq.

## Yaşıl və onun çalarları

Yaz mövsümünün vazkeçilməz rənglərindən olan yaşıl və onun çalarları bu mövsüm də podiumları bəzəyən rənglər arasında yerini alıb. Yaşılın bu kölgəsi canlı bir gö-



rünüşə malikdir və eyni zamanda təbii, rahatladıcı tondur.

## Çöl çiçəyi rəngi

Çəhrayı rəngin isti və maraqlı tonu olan Çöl çiçəyi rəngi də son bir neçə mövsümdə







gördüyümüz canlı çəhrayılardan fərqli olaraq daha sakitləşdirici, təbii və sadəlövhdür. İlin rəngi olan "Peach Fuzz" ilə də uyğun gələn bu rəng mövsümdə hər zaman olduğu kimi daha sakit, lakin canlı rənglərin ön planda olacağını vurğulayır.

## Mavi

Yaşıllarla yanaşı mavilərlə də tanış olduğumuz yaz və yay mövsümündə mavinin zəif tonu olan kölgəsi bizə səma mavisini xatırladacaq.

## Yasəmən rəng

Yasəmən mövsümün təravətini və yüngüllüyünü əks etdirir, zərif və romantik bir atmosfer yaradır. Bu rəng istifadə edildiyi



parça ilə enerjisi dəyişən əyləncəli bənövşəyi tondur.

## Marlin

Sarının bu enerjili tonu yaz-yay mövsümünün enerjisini ən yaxşı əks etdirən rənglərdən biridir. Canlı və isti xarakteri ilə günəş şüalarını xatırladan bu rəng parlaq rənglərin ən çox yaraşdığı yaz mövsümündə müsbət enerjisi ilə moda dünyasına təsir edir.

## Nanə yaşılı

Nanə yaşılı təbiətin təzə nəfəsini xatırladan təravətləndirici mentollu yaşıl tondur. Paltarda təravətləndirici təsir yaradan bu ton, incə və zəngin görünüşü ilə paltarın



enerjisini dəyişdirir.

Yaz rəng palitrasının ən canlı çalarlarından biri olan Kapri, "mavi mağara"nın dərin mavi sularını xatırladan parlaq mavi rəngdir. Təbiətin oyanışını və təravətini simvolizə edən bu ton həm də səmanın və dənizin möhtəşəm birləşməsini oyadır, yayın enerjisinə uyğun təravətləndirici atmosfer yaradır. Əyləncəli və təravətləndirici enerjisini paltarlara gətirən bu mavi tonu istifadə edildiyi parçalara rahat, lakin göz oxşayan bir atmosfer qatır.

## Ağ

Parlaq və rəngli tonların hakim olduğu son podiumlardan sonra 2024-cü ilin yaz kolleksiyalarında ən çox seçilən rənglərdən olan ağ, ilin rəng palitrasında yerini aldı. Ağın bu canlı və təmiz tonu sadəlik və müasirliyi oyatmaqla yanaşı, həm də son dövrlərin ən çox seçilən minimalist moda meyllərini təmsil edir.

## Göbələk rəngi

Göbələk, boz-qəhvəyi rəng, isti torpaq rəngidir. Hər mövsümün mütləq olması lazım olan çılpaq tonlardan biri olsa da, bu təbii ton kifayət qədər zərif görünür və eyni zamanda qəşəng və incə bir görünüş təmin edərək hərkəsi heyran edir.

## Boz

Boz rəng də yaz palitrasında yerini alır. Bu minimal görünüşü ilə mürəkkəb zərifliyin tamamlayıcı rəngidir.

Bozun digər çaları olan Silent Shadow, son zamanlar diqqəti cəlb etməyə başlayan və 90-cı illərin simvolik siluetlərindən ilhamlanan ofis üslubuna ən çox yaraşan tonlardan biridir. Hər mövsüm üstünlük verilən klassiklərdən biri olan bu boz risksiz, eyni zamanda inamlı və güclü görünüş nümayiş etdirir.

Faydalı qəhvəyi ton olan bu rəng sadəliyi və zərifliyi birləşdirərək həm müasir, həm də təbii görünüş yaradır. Son dövrlərin minimalist moda yanaşması ilə də bütünləşən bu rəng çılpaq ton mövsümün ən çox seçilən çalarlarından biridir.

*Ayşən Vəli*

# Ermənistan üçün TƏHLÜKƏ:

## Brüsseldə imzalanan pakt böyük fəsadlar törədəcək

***Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra regionda yeni əməkdaşlıq mühiti üçün əlverişli zəmin formalaşdı. Lakin bu yeni geosiyasi konfiqurasiyanı qəbul etməyən güc mərkəzləri dərhal hərəkətə keçdilər. Ermənistanın silahlandırılması, regionda gərginliyin artırılması və yeni reallıqlara əks münasibətlər sistemini müşahidə etməyə başladıq. ABŞ və Fransa başda olmaqla bəzi destruktiv qüvvələr regionda öz varlıqlarını sübut etməyə və Ermənistana hərtərəfli dəstək nümayiş etdirməyə təşəbbüs göstərdilər.***



Aprelin 5-də Avropa İttifaqı, ABŞ və Ermənistan arasında Brüsseldə keçirilmiş görüşlə bağlı Ermənistanda böyük illüziyalar var idi. Hərbi paktın imzalanması, eləcə də hərbi-siyasi təhlükəsizlik sahəsində hərtərəfli dəstəyin nümayiş olunması və bu dəstəyin birtərəfli qaydada ödənişsiz icrası İrəvanın əsas niyyəti idi. Bütövlükdə isə Qərbin neoimperialist şəbəkələrinin Azərbaycanın iştirakı olmadan Ermənistanla hansısa görüşlər keçirməsi bölgə ilə bağlı məkrli-məqsədli planların növbəti göstəricilərindən biridir. Bu günlərdə sözügedən Brüssel görüşünün detalları bəlli olub.

ABŞ Dövlət Departamenti yayılmış sənədi "dezinformasiya" adlandırısa da, bu ciddi sənəddir. Fakt qarşısında qalanda ən asan yol bunu "dezinformasiya" kimi qələmə verməkdir. Sənəddə əks olunan məqamlar ABŞ-la Ermənistan arasında açıq şəkildə müzakirə olunub. Bu məsələlər Ermənistan nümayəndə heyəti ABŞ-da səfərdə olarkən





Pentaqonda və digər qurumlarda görüşlər zamanı konkret müzakirə obyekti olub.

5 aprel görüşünədək müzakirələr davam edib, sadəcə Azərbaycanın ciddi narahatlığına görə Brüssel görüşündə bu komponenti ört-basdır ediblər. İndi də "dezinformasiya" adlandıraraq gündəlikdən çıxarmaq istəyirlər. Azərbaycanın müdaxiləsindən sonra 5 aprel görüşündə məsələ gizlədilsə də, ortada real gizli pakt var. Bu sənəd göstərir ki, real müzakirələr aparılıb və addımlar atılıb.





Prezident İlham Əliyev regionda hazırkı mövcud vəziyyəti qorumaq və eləcə də inkişaf etdirmək istiqamətində çoxsaylı addımlar atmışdır. Sülh, təhlükəsizlik və sabitlik üçün ardıcıl səylər daha da inkişaf etdirilmişdir. Eyni zamanda, dövlət başçımızın qətiyyəti və siyasi iradəsi, müdrikliyi regional təhlükəsizlik təhdidlərinin də aradan qaldırılmasına kömək edir. Brüssel görüşündən öncə Antoni Blinkenin və Ursula Fon der Lyayenin Bakıya zəng etmələri, göstərir ki, Azərbaycan regionda əsas siyasi-iqtisadi güc mərkəzidir.

Heç şübhəsiz ki, Brüssel görüşü Qərbin ikiüzlü siyasətinin açıq-aydın nümayişi oldu. Ötən 30 il ərzində bölgəyə sülhün gəlməsi üçün heç bir addım atmayan, bir milyona yaxın azərbaycanlı qaçqın və məcburi köçkünün taleyindən narahat olmayan, ərazilərimizin barbarcasına dağıdılmasına heç bir reaksiya verməyən dövlətlər bu gün Azərbaycana qarşı bu cür ikiüzlü siyasəti davam etdirirlər. Biz yaxşı başa düşürük ki, bu görüş bölgəmizə yaxşı heç nə vəd etmir.

Ermənistanı birmənalı olaraq növbəti provokasiyaya, eyni zamanda, revanşizmə və Azərbaycana qarşı düşmənçiliyə təhrik edilir. Burada söhbət bizim bölgəmizdə yeni NATO mexanizminin yaradılmasından və regionda kövrək sülhü pozmaqdan, Azərbaycanın yaratdığı yeni reallığa mane olmaqdan, həmçinin geosiyasi vəziyyəti dəyişmək kimi təhlükəli məqsəd və hədəfləri reallaşdırmaq cəhdindən gedir. Amma bunlar heç bir effekt verməyəcək, Azərbaycan mütləq bütün hədəflərinə və məqsədlərinə nail olacaq.

Avropa Komissiyası nə qədər əsaslandırmağa çalışsa da bu görüş Azərbaycanın, eləcə də bölgənin əleyhinə yönəlib. Müzakirələr, qaldırılan məsələlər açıq-aydın göstərir ki, burada yenə də hədəf və məqsəd Azərbaycandır. Bunu başqa cür başa düşmək qeyri-mümkündür. Çünki Qərbin regionla bağlı qurduğu təxribat planının izləri aşkar şəkildə görünür. Görünən odur ki, Brüsseldə hazırlanan plan böyük fəsadlar törədəcək.

***Cavid Əkbər***

# Gənclərin həmrəyliyi: nədir, nə vəd edir?

***Gənclik dövrünü insan həyatının xəzinəsi adlandırırlar. Gənclər hər dövrdə və hər coğrafiyada xalqların ən qiymətli sərvəti olub. Gəncliyin dəyəri həm də ona görə böyükdür ki, o, keçmişlə gələcək arasında körpünün yaradılmasına xidmət edir, ənənələr ilə yeniliklər arasındakı körpüdür, öz keçmişini gələcəyə daşıya biləcək ən mühüm vasitədir. Yenilikçi, ixtiraçı gənclik milli və mənəvi dəyərlərə görə tərbiyə aldıqdan sonra o gələcək möhkəm olmağa məhkum olacaq.***




Ümumdünya Demokratik Gənclər Federasiyasının qərarı ilə 1957-ci ildən etibarən hər il aprelin 24-ü Beynəlxalq Gənclər Həmrəyliyi Günü kimi qeyd edilir. Bu günün təsis edilməsində məqsəd dövlət orqanlarının, cəmiyyətin və kütləvi informasiya vasitələrinin diqqətini gənclərin sosial , mənəvi, mədəni problemlərinə cəlb etmək, gənclərin hərtərəfli müdafiəsi, onların inkişaf və tərəqqisinə şərait yaratmaqdan ibarətdir.

Bu gün bütün dünyada gənclərin konqresləri, seminarları, maarifləndirici mühazirələri və konfransları keçirilir. Həmçinin gənclərin fleşmobları, yaradıcılıq sərgiləri və digər tədbirlər təşkil olunur, müxtəlif ölkələrdə yaşayan gənclər bir araya gətirilir. Ümumiyyətlə, bütün inkişaf etmiş ölkələrdə yeniyetmə və gənclərlə bağlı dövlət siyasətinin əsas prinsiplərinin müəyyənləşdirilməsi, gənclərin sosial-iqtisadi siyasətdə fəal iştirakının təmin edilməsi prosesi prioritet məsələdir. Respublikamızın ictimai-siyasi həyatı, gənclərin sosial-mənəvi tələbatlarının ödənilməsi, onların formalaşması və layiqli vətəndaş kimi formalaşması üçün əlverişli şərait yaradılması üçün də bu mühüm məsələdir.







Etiraf edək, 90-cı illərin əvvəllərində, SSRİ-də yeganə gənclər təşkilatı olan komsomolun fəaliyyəti dayandırıldıqdan sonra gənclər mənəvi boşluğa, böhrana düşdülər. Çay evlərində gün keçirən, bekar gəzən gənclər ordusunun yaranma təhlükəsi hiss olundu. Amma müstəqilliyin ilk illərində ictimai-siyasi fəallıq gənclərdən də yan keçmədi, meydanlarda, mitinqlərdə çox sayda gənc görünürdü. Dövlətimiz gənclərin çiyinləri üstündə inşa olundu desək, yəqin ki yanılmarıq. Gənclərin prinsip, mənəvi dəyər, həyata baxış sistemi formalaşmağa başladı, yeni müstəqil gənclər təşkilatları yaradılmağa başladı. Bu da təbiidir, gənclik xalqın ümidi, onun inkişaf və tərəqqisinin əsas meyarı və barometridir, hər bir cəmiyyətin maddi və mənəvi tərəqqisi bilavasitə gənclər siyasətinin düzgün qurulmasından, təşkilindən və aparılmasından, sosial-mənəvi tərəqqidən asılıdır.

Dövlətin gələcəyini zəmanət altına almaları üçün gənclərin yaxşı təhsil almaları şərtdir. Bu günkü təhsil sistemi onlara innovativ bir gələcək vəd edirmi? Birmənalı olaraq deyə bilərik ki, yox. Əgər gənclərin gələcəyimiz olaraq formalaşmasını istəyiriksə onların potensialını üzə çıxaracaq təhsil sistemi yaradılmalı və tətbiq edilməlidir. İnkişaf etmiş ölkələrdə qəbul edilməyən təhsil proqramları ilə şagirdlər üzərində dəlləklik edən təhsil sistemimiz bunu onlara borcludur. Effektiv öyrənmə və imkanları özündə ehtiva edən dinamik özül yaradılmalıdır. Fərqlilik yaratmaq adı ilə naməlum təhsil proqramlarını tətbiq edib uşaqların beynini qarışdırmaq yerinə effektiv üsullar tapılmalıdır. Gənclərin yalnız təhsil yox, həm də tələbat olan peşələrə yiyələnmələri üçün stimul verilməlidir. Peşə təhsili almaq üçün onlarla söhbətlər aparılmalı, peşəkar xarrat, bənna, dəmirçi, pinəçi, qənnadçı, dərzi kimi işlərdə yaxşı əməkhaqqı vəd edilməlidir.

Gənclərin analitik və düşünmə qabiliyyətini inkişaf etdirməsi və uğur qazanması üçün onların qarşısındakı maneələri aradan qaldırmaq lazımdır. Ölkəmizdə nə qədər gənc dərsdən əlavə hər hansı beyin inkişafı vəd edən layihələrə, təlimlərə qoşula bilir? Bunun üçün maddi və mənəvi imkanı, şəraiti olurmu? Gələcək həyatına hazırlıq mərhələsində olan gənclər ahıl və qocalıq çağlarına hansı yatırımı edə bilirlər?

Gənclərin əksəriyyəti elmi, texnoloji inkişafları yaxından izləmək və bunu sosial və iqtisadi faydaya çevirmək qabiliyyətinə malik olur. Bu bacarıqlarını cəmiyyətimiz üçün faydaya çevirəcək qazanc əldə etmək üçün dövlət onlara maksimum imkan yaratmalıdır. Rifah səviyyəsini yüksəltmək, gələcək nəsillərə daha parlaq bir ölkə miras qoymaq istəyiriksə hamı əlini daşın altına qoymalıdır. Gənclərə oxumaları, sənət öyrənmələri, bildiklərini tətbiq etmələri üçün meydan yaratmalıyıq.

Gənclər adətən problemlərdən xəbərdar olur, maraqlanır və araşdırma aparır, yaradıcı olur və təxəyyülünü inkişaf etdirir, həll yolları fikirləşir. Onlar daha kreativdirlər, daha dinamikdirlər. Dayanmırlar, yorulmurlar, daim axtarışdadırlar. Təşəbbüskar, dəyişikliklərə və inkişafa açıq olan, eyni zamanda dəyərlərinə, milli kimliyinə sadiq olan gənclik yetişdirmək, bizim öz dövlətimizə və cəmiyyətimizə ən böyük xidmətimiz olar.

Ulu öndər Heydər Əliyev gənc nəslin əxlaqi tərbiyəsi məsələlərinə xüsusi diqqət yetirir, gənclərə ümumbəşəri dəyərləri, Azərbaycan xalqının milli-mənəvi dəyərlərini dərindən və hərtərəfli öyrənməyi və mənimsəməyi tövsiyə edirdi. O deyirdi ki, gənclər milli dəyərləri, milli adət-ənənələri, dili, dini və tarixini bilməyən və mənimsəməyənlər vətənpərvər ola bilməzlər. O deyirdi: "Vətənpərvərlik təkcə hərbi xidmət deyil, Vətənə sadiq olmaq, doğma torpağı sevmək, onu müdafiə etməyi bacarmaq deməkdir. Vətənpərvərlik budur"

Azərbaycanda ali hərbi məktəblərin açılması isə milli hərbçi kadrların hazırlanmasında çox böyük bir iş idi. Bu məktəblərdən böyük generallar, hərbi mütəxəssislər yetişdi və onlar 1-ci Qarabağ müharibəsində Azərbaycan Ordusunun özəyini təşkil etdilər. Heydər Əliyevin Sovet dövründə yeni mərhələyə qədəm qoyan ölkəsi, doğma xalqı qarşısında ən böyük və misilsiz xidməti o idi ki, Azərbaycan 1991-ci ilin sonunda İttifaqdan ayrılıb müstəqilliyini elan etdiyi vaxt respublikamız əvvəlcədən hazırlanan həmin kadrların sayəsində artıq müstəqil bir dövlət kimi yaşamağa tam hazır idi.

Həm I, həm də II Qarabağ Müharibəsi zamanı dünyanın hər tərəfindən Azərbaycan həmrəyliyinin sədası eşidildi. Müxtəlif ölkələrdə yaşayan azərbaycanlılar orduya dəstək məqsədi ilə yardım topladılar, illərdir xaricdə yaşayan gənclər cəbhəyə getmək üçün vətənə döndü, onlar dar gündə dövlətinin, ordusunun yanında olduqlarını, həmrəy olduqlarını hiss etdirdilər. Xüsusilə II Qarabağ Müharibəsi günlərində cəbhəyə yardım uğrunda bir-biri ilə yarışdı gənclər, magistral yolların kənarında gecələdilər, orduya yardım göndərə bilmək üçün bütün mümkün vasitələrə əl atdılar. Bu həmrəylik cəbhədə əsgərlərə ruh verdi, güc verdi, stimul verdi.

Dünyada sülhün bərqərar olması, bütün dünya xalqlarının dinc yaşaması üçün gənclərin həmrəyliyi lazımdır. Bütün dünya gəncləri birləşib həmrəylik göstərərsə, hər ölkədə sülh üçün təbliğat aparılsa, dinc yaşamaq üçün cəhdlər göstərilsə, bəlkə bir gün dünya yaşanılacaq yerə çevrilər.

***Lalə Mehralı***

# “Milli Şura” planlaşdırdığı aksiyada Makronun portretini qaldıra bilər

Harada çatışmazlıq, qüsur və ya məişət problemi varsa, oradan dağıdıcı müxalifətin hay-küyü eşidilir. Əli Kərimli, Cəmil Həsənli, Fuad Qəhrəmanlı, Gültəkin Hacıbəyli və digərləri xor dərnəyinin cükküldəyən üzvləri kimi ağız-ağıza verib, xırda məişət problemini qlobal məsələ olaraq qabardıb, öz siyasi məqsədləri üçün istifadə etməyə çalışırlar. Gah deyirlər ki, sərbəst toplaşmaq azadlığı pozulur, gah iddia edirlər ki, əhalinin pul gəlirləri azalıb, bəzən də dərinə gedərək sayıqlamalar səsləndirirlər ki, insan azadlıqları sahəsində əngəllər var. Lakin özlərindən uydurub dilə gətirdikləri ”problemlər”in necə və hansı formada dövriyyəyə buraxıldığını araşdırdıqda məlum olur ki, cəmiyyətin bu kimi hay-küylərdən xəbəri yoxdur. Daha doğrusu, ictimaiyyət dağıdıcı müxalif ünsürlərin hay-küylərinin kökündə hansı siyasi hiyləgərliklər dayandığını anladıqlarından, onların hay-küylərinə önəm vermirlər. Yəni mənasız boşboğazlıq kimi qiymətləndirib, rədd edirlər. Çünki cəmiyyət dağıdıcı müxalifətin xarici maraqlı dairələrin əlində alət olduğunu yaxşı bilir. Həm də onu da anlayır ki, xarici erməni lobbisinin maddi və mənəvi dəstəyidir ki, Ə.Kərimli, C.Həsənli, F.Qəhrəmanlı və digərləri milli və dövlətçilik maraqlarına ziyan vurmağa çalışırlar. Haqlı və əsaslı suallardan biri də ondan ibarətdir ki, nəyə görə dağıdıcı müxalifət Fransanın, Almaniyanın və Niderlandın qaranlıq dairələrinin Azərbaycana yönəlik qarayaxma kampaniyasına, xüsusilə də ermənilərin maraqlarına cavab verən qətnamələrinə cavab vermirlər? Əksinə, Avropa İttifaqının mövqeyini müdafiə edir və Azərbaycanla bağlı qərəzli qətnamələrinə haqq qazandırırlar. Bu isə onu təsdiq edir ki, Milli Şura və AXCP rəhbərliyi maddi maraqlarını sözügedən dövlətlərin qaranlıq şəbəkələrindən alırlar. Məhz ciblərinə axan çirkli pulların şirniklendirici sehridir ki, ”Milli Şura” və



AXCP mayın 5-də mitinq keçirmək xülyasına düşüb. Hətta ultimativ şəkildə bəyan ediblər ki, əgər şəhərin mərkəzində aksiyanın keçirilməsinə icazə verilməsə, o zaman icazəsiz şəkildə - polislə qarşıdurmaya getməklə aksiyanın reallaşdırmağa çalışacaqlar.

### Niyə ”Milli Şura” icazəsiz aksiyaya meyil göstərir?

”Milli Şura” və AXCP funksionerləri hər məqamda bəyan edirlər ki, guya Bakı Şəhər İcra Hakimiyyəti sərbəst toplaşma azadlığını pozur. Heç şübhəsiz ki, məntiqsiz və uydurulmuş iddiadır. Çünki hər bir kəsin, o cümlədən də siyasi partiyaların toplaşmaq azadlıqları qanunla tənzimlənir. Bu zaman heç kimə, heç bir siyasi partiyaya, ictimai birliklərə qadağa qoyulmur. Sadəcə, bütün dünyada olduğu Azərbaycanda da kütləvi tədbirlərin, aksiyaların keçirilməsi üçün müvafiq yerlər ayrılır. ”Milli Şura” və AXCP üçün də hay-küy qaldırmaq və mənasız fikirlərini səsləndirmək üçün Qaradağ rayon stadionu ayrılıb. Ə.Kərimli, C.Həsənli isə məhz ”28 may” və ”Nərimanov” metrostansiyalarının önündə aksiya keçirməyi israr edir. Hansı həmin ərazilər əhalinin və avtomobillərin sıx hərəkət etdikləri yerlərdir. Necə ola bilər ki, 45-50 nəfərin hikkəsinə görə, on minlərlə şəhər sakinin hüquqlarını pozmaq olar? Dünya da elə bir ölkə varmı ki, orada dağıdıcı müxalifətin iddiasına uyğun aksiyaların keçirilməsi üçün yer ayırsın? Yoxdur, belə bir dövlət. Bəlkə də yüz illər sonra Ə.Kərimlinin, C.Həsənlinin və onların arxasında dayanan məkrli qüvvələrin istək və tələblərinə uyğun hansısa cəmiyyət yaransın. O zaman belə şəhərlərin mərkəzində aksiyaların keçirilməsi müəyyən tələblər çərçivəsində olacaq. İndiki dövrdə isə müxalifətin arzularının reallaşması mümkünsüzdür. Səbəbini də yuxarıdakı fikirlərimlə göstərdim. Lakin dağıdıcı müxalifət metrostansiyaların önündə icazəsiz aksiyaların keçirilməsinə çalışır. Həm də diqqətçəkən məqam ondan ibarətdir ki, icazəsiz aksiyalarda Azərbaycanın mənafeyinə zidd şüarların, çağırışların səsləndirilməsi planlaşdırılır. Xüsusilə də, ermənilərin dəyərsiz bacısı qismində çıxışlar edən Fransa prezidenti E.Makronun portretin qaldırılması nəzərdə tutulur. Xatırlatmaq lazımdır ki, hazırkı tör-töküntüdən ibarət olan dağıdıcı müxaliflər ”Məhsul” meydanında aksiya keçirdikləri zaman ABŞ prezidenti C.Buşun portretlərini başlarının üzərində qaldırıb, ondan imdada diləyirdilər. O zaman cəmiyyət onları ittiham etdi, qınadı, ittihamlar irəli sürdü. Lakin bu qınaq və ittihamlar nəticəsiz qaldı. Çünki sonrakı aksiyalarda da eyni fəaliyyətlərini davam etdirdilər. İndi isə aksiyalarında E.Makronun portretini və Avropa İttifaqının bayraqlarını qaldırmağı planlaşdırıblar. Bütün bunlar dağıdıcı müxalif ünsürlərdə, xaricdəki antimilli qüvvələr kimi milli hissin və mənliyin, şərəfin olmadığını göstərir. Həm də təsdiq olunur ki, siyasət onlar üçün sadəcə gəlir mənbəyidir. Hay-küyləri, mitinq keçirmək istəkləri də ancaq və ancaq xaricdən əlavə qrantlara almaq arzusu ilə bağlıdır.

***İLHAM ƏLİYEV***

*MÜNASİBƏT*

# “Bu üç səbəb uşağın məşğələyə getməsini ”stimullaşdırır””

**“Ümumiyyətlə, bizdə birinci sinifdən etibarən uşağın məşğələyə, əlavə müəllim yanına getməsi az qala vərdiş halına keçib, ümumi qanunauyğunluq halına çevrilib”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti, STM əməkdaşı Elmin Nuri deyib.**

O bildirib ki, bu, bir tərəfdən baxanda arzuolunan, bir tərəfdən baxanda isə arzuolunmaz hadisədir: "Uşaqların istər öz müəllimlərinin yanında dərsdən sonra məşğələyə getməsi, yaxud da digər müəllimin xidmətlərindən istifadə etməsinin bir neçə səbəbi var. Birinci səbəb, uşağın verilən proqramı qavraya bilməməsi, gec anlaması, öyrənmə vərdişlərinin zəif olmasıdır. Bu problemin aradan qaldırılması üçün əlavə repetitor, məşğələ müəllimi xidmətindən istifadə olunur.

İkinci səbəb, psixoloji xarakter daşıyır. Cəmiyyət daxilində, sanki ümumi qanunauyğunluq və vərdiş halını almalıymış kimi valideynlərarası bir tendensiya səviyyəsinə gəlib çatıb. Burada valideynlərin bir-biri ilə rəqabəti, uşaqların sanki rəqabət meydanında məşğələ müəllimi yanına getməsinin vacib fiqur kimi qavranılması, bunun təlqin olunması səbəb kimi durur.

Üçüncü səbəb isə müəllimin basqısı və uşağın onun yanına əlavə məşğələyə gəlməsini az qala zorla məcbur etməsidir. Düzdür, bu basqılar birbaşa olmur, bullinq şəklində həyata keçirilmir. Bunun psixoloji aspektləri var. Məsələn, bir sinifdə 5 şagird həmin müəllimin yanına





gedirsə, digər 15 şagird getmirsə, dərs prosesində pedaqoji işin təşkili zamanı həmin 5 şagird daha çox diqqət mərkəzində olur. Onlar uşaqdırlar. Cəmiyyətə hələ indi göz açırlar. Onların psixologiyası çox həssas olur. Bir dərs müddətində şagirdin müəllimdən daha az diqqət görməsi, ona qarşı etinasız yanaşılması onda psixoloji problemə çevrilir. Uşaq bəzən özünü ifadə edə bilmir. Özünə qarşı etinasızlıq və laqeydliyi əsaslandıra bilmir. Amma şüuraltı olaraq bu proseslər gedir.

Müəllim öz yanına gələnlərə əlavə vaxt ayırır. Çünki onlardan əlavə pul görür. Onların diqqət və qayğısına da xüsusi yanaşır. Sanki onun yanına məşğələyə getməyənlər şagird deyil. Bu, təbii ki, hamıya aid deyil. Bu gün MİQ vasitəsilə məktəblərə işə qəbul olunan, şagirdlərin hər biri üçün canını əsirgəməyən müəllimlərimiz də var. Mən qətiyyən onların haqqına girmək istəmirəm. Onları təqdir edirəm”.

”Bu üç səbəb uşağın məşğələyə getməsini ”stimullaşdırır”. Mən yalnız birinci qrupa aid olanları haqlı hesab edə bilərəm. Çünki, həqiqətən də, uşaqlar eyni deyil, uşağın fizionomiyası, zehni, psixoloji inkişafı eyni deyil. Nisbətən geri qalanları proqrama çatdırmaq üçün, digər yoldaşları ilə ayaqlaşdırmaq üçün müəllim əlavə vaxt və əmək sərf edirsə, bunu məşğələ səviyyəsində və halal zəhməti ilə edir. Digər səbəbləri isə qəbul etmirəm.

Məkan kölgədə qalan faktordur. Hər şeyi məktəbin üzərinə atmayaq. Söhbət abituriyentlərin deyil, söhbət uşaqların məşğələyə getməsindən gedir. Bir müəllim ibtidai sinifdə həmin uşağa dərs deyir. Dərs bitəndən sonra saat 4-də valideyn uşağını yenə həmin müəllimin evinə, yaxud da hazırlıq keçəcəyi bir məkana aparır. Həmin müəllim onsuz da, ona dərs demirmi? Səbəb kimi deyirlər ki, sinifdə şagird çoxdur, çatdırmaq olmur. Şagird sıxlığını, müəllimin dərsi düzgün bölüşdürə bilməməsini valideynin cibinə girməklə kompensasiya etməliyik? Bunu müəllim deyirsə, valideynlər niyə bu yola gedirlər? Uşaq sinif yoldaşından geri qalmasın deyə bunu edirlər. Məktəb burada ikinci, bəlkə də üçüncü dərəcəli faktora çevrilib. Biz məktəbi, uşaqları qorumalıyıq. Məşğələ ibtidai sinfə daha çox kök salıb, nəinki abituriyentlərə. Buna diqqət etməliyik” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



**Elçin Bayramlı**

# Oxumayın!

Bir insanın dəyəri onun oxuduğu kitablarla ölçülür-Herbert Spencer

***İnsanın bilikli, əxlaqlı, ağıllı şəkildə formalaşması üçün ən əsas vasitələrdən biri mütaliədir. Texnologiyanın sürətli inkişafı son vaxtlar bu sahədə ciddi problemlər yaradıb. İndi insanlar televizora, internetə, telefona vaxt ayırırlar, kitab oxumağa isə yox. Yüzlərlə kitabxana məhv edildi, evlərdən kitab rəfləri yoxa çıxdı, artıq nadir hallarda kiminsə kitab oxuduğunu görmək olur. Bunun bir sıra obyektiv və subyektiv səbəbləri var. Onlara keçməmişdən əvvəl mövzuya qısa bir giriş verək.***

Sovet dövründə bizi Leninin məşhur sözü ilə böyütdülər- Oxumaq, oxumaq yenə də oxumaq! Bu şüar Sovet hakimiyyətinin əhalinin maarifləndirilməsi istiqamətində əsas ideoloji siyasət konsepsiyası idi.

Lakin elə həmin Lenin yazırdı: ”Unutmaq lazım deyil ki, oxumaq məqsəd deyil, vasitədir. Oxumağın nəticəsində insan faydalı məlumat əldə etməli, faydalı şeylər öyrənməli və onları özünün və cəmiyyətin həyatında tətbiq etməlidir”.

Sovet İttifaqı kitabxanaların sayına, dərc edilmiş kitabların ümumi tirajına və oxuma səviyyəsinə görə dünyada ilk yeri tuturdu. Sovet dövründə ədəbiyyatın böyük missiyası var idi. Kitab elm, dünyagörüş, bilik verməklə yanaşı, insanlıq, xeyirxahlıq, namusluluq, vətənpərvərlik, fədakarlıq, səmimilik, doğruluq, zəhmətkeşlik, vicdanlılıq kimi müsbət əxlaqi dəyərləri təbliğ edir, bu keyfiyyətlərə sahib müsbət qəhrəmanları örnək göstərirdi. Mənfi qəhrəmanlar isə elə ustalıqla ifşa və rüsvay olunurdu ki, heç kim ondan nümunə götürməyi ağlına belə gətirə bilməzdi. Yazıçılar ədəbi tryuklarla cəmiyyətə insani dəyərləri təbliğ edirdilər.

İndi bəzən hansısa ”postmodernist yazıçı” çıxıb ortalığa deyir ki, bəs ədəbiyyatın belə missiyası və öhdəliyi yoxdur. Ədəbiyyat bir kommersiya fəaliyyətiymiş və bazara hesablanmalıymış.

Ona görə də, ucuz bulvar romanları, porno səhnələrin təsvir edildiyi, əcaib, hətta iyrənc motivlərin uydurulduğu cızma-qaralar cəlbedici adlar qoyulmaqla ədəbiyyat adına oxuculara sırınmalıymış ki, bəzi dələduzlar pul və şöhrət qazansınlar.

Əvvəla, bunlara kim deyib ki, oxucuların səviyyəsi bu qədər aşağıdır və belə ”əsərlərə” tələbat var? Axı, əvvəla bizim ölkənin kitab bazarının həcmi, hansı kitabın nə qədər tirajla buraxıldığı və satıldığı haqda hərdən elan olunan təxmini rəqəmlər belə şübhəlidir və şəffaf deyil.

İkincisi, bu postmodernist yazıçılar niyə oxucunu öz səviyyələrinə salmalıdır ki, bəlkə özləri oxucunun səviyyəsinə yüksələlər? Üçüncüsü, kim və necə müəyyən edir ki, hansı yazıçılar, hansı mövzular, hansı əsərlər cəmiyyətin istəyini təmin edir?

Televiziyaların insanı xəbər, serial, şou bombardmanına tutduğu, informasiya əsrinin ən böyük vaxt oğrusu internetin geniş yayıldığı bir vaxtda ortaya daha bir problem çıxır- nə oxuyaq ki itirdiyimiz qiymətli vaxta dəysin.

İndi kitab bazarındakı əksər yeni əsərlərə baxanda adam düşünür ki, belə kitabları oxumamaq yaxşıdır. Müasir ədəbiyyat olduqca ruhsuz, duyğusuz, mənəvi boşluqla maddi həzzlərin paralel müşahidə olunduğu kağız yığnağıdır.

Birmənalı olaraq postmodernist ədəbiyyat cəmiyyətə müsbət dəyərlər təbliğ etmir, insanlara ancaq azad cinsi münasibətləri, içki və siqaret kimi zərərli vərdişləri, tüfeyliliyi, eqoizmi, cinayətkarlığı, zorakılığı, ağlagəlməz murdarlıqları təbliğ edir.

Elə bir dövrə gəlmişik ki, artıq kitab oxumaq əksər hallarda insana və cəmiyyətə zərər vurur. Təhlükəli ”dini” ədəbiyyat, intim ədəbiyyat, kriminal aləmi öyən və canilələri nümunə göstərən zərərli kitablar əksəriyyət təşkil edir. Deməli, çox oxumaqdan yox, nə oxumaqdan söhbət getməlidir.

Ona görə də, əgər müasir ədəbiyyatı oxuyacaqsınızsa, yaxşısı budur oxumayın! Müasir ədəbiyyatın əxlaqı yoxdur! Psixologiyanızı, əsəblərinizi, əxlaqınızı qoruyun! Oxumayın!

Bəs nə oxuyaq? XX əsrdə çap edilmiş dəyərli kitabların sayı-hesabı yoxdur. Onları bukinist mağazalardan və kitabxanalardan ucuz qiymətə əldə edə bilərsiniz. Üstəlik, əksər əsərlərin elektron versiyaları internetdə var. Birdəfəlik başa düşmək lazımdır- tək-tük istisnaları nəzərə almasaq, ədəbiyyat XX əsrdə bitmişdir!

Ümumdünya Kitab Gününüz mübarək!

# Dmitri Solonnikov: "İlham Əliyevin Moskva səfəri Rusiya üçün xüsusi əhəmiyyət kəsb edir"





Müasir Dövlət İnkişafı İnstitutunun direktoru Dmitri Solonnikov "Moskva-Baku" portalına müsahibəsində Prezident İlham Əliyevin Moskvaya səfəri zamanı Rusiya və Azərbaycan liderlərinin səsləndirdiyi bəyanatları şərh edib. Müsahibəni oxucularımıza təqdim edirik.

***- Dmitri Vladimiroviç, Vladimir Putin və İlham Əliyev Azərbaycan liderinin Moskvaya işgüzar səfəri zamanı danışıqların giriş hissəsində regional təhlükəsizlik məsələlərinə xüsusi diqqət yetiriblər...***

- Həqiqətən də, Cənubi Qafqazda təhlükəsizlik məsələləri bu gün də əvvəlki kimi Rusiya-Azərbaycan münasibətlərində son dərəcə aktual olaraq qalır. Qarabağ münaqişəsi həll olundu, Azərbaycanın ərazi bütövlüyü bərpa olundu, lakin gördüyümüz kimi, Qərb Ermənistandan istifadə etməklə Zaqafqaziyada vəziyyəti sarsıtmağa çalışır. Və belə olan halda, Rusiya və Azərbaycan regionda Qərbin planlarının həyata keçirilməsinin qarşısını almaq üçün siyasətləri koordinasiya etməlidir. İlham Əliyev xüsusilə vurğuladı ki, Azərbaycan və Rusiyanın digər sahələrdə olduğu kimi, regionda təhlükəsizlik sahəsində də qarşılıqlı fəaliyyətindən çox şey asılıdır. Azərbaycan dövlətinin başçısı qeyd edib ki, Bakı bu gün regionda təhlükəsizlik məsələlərinin həll olunmasından məmnundur. Bu, şübhəsiz ki, Moskva ilə Bakının eyni gəmidə olduğunu nümayiş etdirən çox mühüm vurğudur.

Vladimir Putin də öz növbəsində qeyd edib ki, Rusiya-Azərbaycan danışıqlarının gündəliyinə təhlükəsizliklə bağlı bir çox məsələlər daxildir və bunlar həssas məsələlərdir.

Liderlər Rusiya sülhməramlılarının Qarabağdan çıxarılması məsələsini açıq müzakirə etməyiblər. Lakin mən şübhə etmirəm ki, bağlı qapılar arxasında bu məsələ qaldırılmaya bilməzdi. İlham Əliyev isə Rusiya sülhməramlılarının Cənubi Qafqazda sabitlik və təhlükəsizliyə verdiyi töhfəyə görə Rusiya dövlət başçısına minnətdarlığını bildirib. Və bu gün regionda təhlükəsizlik məsələsinin Putinlə Əliyev arasında təmasların mərkəzində olmasını nəzərə alsaq, görünür, liderlər ölkələrinin təhlükəsizlik məsələsində qarşılıqlı fəaliyyətini necə davam etdirəcəkləri ilə bağlı razılığa gələcəklər.

İlham Əliyevin Moskvaya səfəri mühümdür və xüsusi əhəmiyyət kəsb edir, çünki bu, onun yenidən Azərbaycan prezidenti seçildikdən sonra Rusiyaya ilk səfəri, eləcə də Rusiya liderinin yenidən dövlət başçısı seçilməsindən sonra ilk görüş idi. Yeni prezidentlik dövrləri həmişə simvolik xarakter daşıyır. Və simvolikdir ki, hər iki lider yenidən seçildikdən sonra həqiqətən yaxşı qonşular, eyni istiqamətə baxan ölkələr, strateji tərəfdaşlar və müttəfiqlər kimi qeydləri müqayisə etmək qərarına gəliblər. Və onlar hər iki dövlət üçün mühüm əhəmiyyət kəsb edən konkret strateji layihələrin həyata keçirilməsi üçün yeni dövr müəyyən ediblər, məsələn, Əliyevin Putinlə görüşündə qeyd etdiyi kimi, bir çox ölkələr arasında ticarət əlaqələrini stimullaşdırmaq üçün, yükdaşımaların təhlükəsizliyi üçün qlobal əhəmiyyət kəsb edən "Şimal-Cənub" dəhlizi məsələsi. Rusiya lideri mütəmadi olaraq Şimal-Cənub layihəsinin həyata keçirilməsinin vacibliyindən danışır.

Bu gün Rusiya liderinin mətbuat katibi Dmitri Peskovun dediyi kimi, Azərbaycan Rusiya üçün böyük dost, müttəfiq, strateji tərəfdaşdır və onunla çoxlu müştərək layihələr həyata keçirilir. Azərbaycan Rusiya Federasiyası üçün doğrudan da şəffaf, məsuliyyətli, etibarlı tərəfdaşdır, digər məsələlərlə yanaşı, nəqliyyat və iqtisadi əlaqələrin inkişafı baxımından da vacibdir. Rusiya ilə Qərb arasındakı münaqişə fonunda, Qərbin Rusiyanın qonşularından ona qarşı necə istifadə etməyə çalışdığı və heç də hamının Rusiya Federasiyasının müttəfiqi olaraq qalmağa nail olmadığı fonunda Azərbaycan, şübhəsiz ki, mühüm ölkədir. Və bizim münasibətlərimiz zamanın və ciddi sınaqların sınağından çıxıb. İlham Əliyev isə xüsusilə vurğuladı ki, iki il ərzində iki ölkə əməkdaşlıqda Müttəfiq Əməkdaşlıq Bəyannaməsinə sadiq qalıb və qalacaq.





Putin və Əliyevin bu gün vaxtilə Heydər Əliyevin rəhbərlik etdiyi layihə olan Baykal-Amur magistralının tikintisinin veteranları ilə görüşməsinə də diqqət yetirmək vacibdir. Belə bir görüş nə qədər yaxşı, insani məqamdır. Və Putinin Əliyevi belə bir tədbirə dəvət etməsi, məncə, həm Moskvanın, həm də Bakının bizim güclü tarixi əlaqələrimizə nə qədər diqqət yetirdiyini bir daha nümayiş etdirir ki, bu da son dərəcə vacibdir. Və Moskva Heydər Əliyevə və onun Sovet dövlətinin inkişafındakı xidmətlərinə necə hörmət edir.

Xatırladığımız kimi, bu yaxınlarda Mixail Mişustin Bakıya gəlmişdi. Bu, həm də şübhəsiz ki, Azərbaycanın Rusiya üçün əhəmiyyətinin və ölkələrimiz arasında layihələrin həyata keçirilməsinin dayanmadan davam etməsinin çox ciddi göstəricisidir.

O da maraqlıdır ki, Əliyevin Moskvaya səfərindən bir neçə gün sonra böyük ehtimalla (ən azı Dmitri Peskov belə təmasların mümkünlüyünü bu gün elan edib) Ermənistanın baş naziri Nikol Paşinyan gələcək. Bu gün Rusiya ilə Ermənistanın münasibətləri çətinləşib. Liderlər həm də onlarda bəzi həssas məsələləri, eləcə də regiondakı vəziyyətə baxışlarını müzakirə etmək imkanı əldə edəcəklər. Beləliklə, Vladimir Putinin həm Azərbaycan, həm də Ermənistan liderlərinin mövqeləri ilə tanış olmaq və müvafiq nəticələr çıxarmaq imkanı var.

***- Bu yaxınlarda Bakı və İrəvan sərhədlərin delimitasiyası prosesinə başlamaq, eləcə də Ermənistanın işğal etdiyi 4 kəndi Azərbaycana qaytarmaq barədə razılığa gəliblər...***

- Bu, onun göstəricisidir ki, Bakı və İrəvan birbaşa, vasitəçi olmadan kifayət qədər uğurla danışıqlar apara bilərlər. Delimitasiyanın başlanması prosesi isə neçə ildir ki, bu mövzunun praktikada tətbiq oluna bilməməsi fonunda Ermənistan-Azərbaycan sülh yolu ilə gedən prosesdə çox mühüm irəliləyişdir. Şübhəsiz ki, Azərbaycan burada yenidən güclü mövqedən çıxış edir. Lakin İrəvanın sülh prosesində irəliləməyə hazır olması Ermənistana yalnız uzunmüddətli perspektivdə fayda gətirməlidir. Ola bilsin ki, nəhayət sülh müqaviləsi imzalansın. Siyasət mümkün olanın sənətidir. Biz görürük ki, sülh prosesi necə böyük çətinliklər və Ermənistan hakimiyyətinin bəzən ziddiyyətli bəyanatları, Qərbin Ermənistanın tərəfini tutmaq cəhdləri ilə müşayiət olunur. Lakin sülh prosesi yolunda müsbət irəliləyişin sübuta yetirilməsi faktı hələ də müəyyən ümidlər verir ki, konstruktivlik baş verə bilər.

Kəndlərin Azərbaycana qaytarılması ilə bağlı gördüyümüz etirazlara gəlincə, biz bunu ilk dəfə deyil ki, Ermənistan-Azərbaycan nizamlanmasının gedişində görürük. Ona görə də biz ilk növbədə bu kəndlərin kimə məxsus olmasına arxalanmalıyıq. Və təxribatlara əhəmiyyət verməməliyik.

***Tərcümə - Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycan Respublikasının dünya birliyinə inteqrasiyası, region ölkələri və digər dövlətlərlə, beynəlxalq təşkilatlarla əməkdaşlığının inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

## "Nar" Füzulidə yerləşən məktəbə yeni kitablar hədiyyə etdi



Sərfəli təklifləri və sosial layihələri ilə seçilən "Nar" 23 Aprel Ümumdünya Kitab Günü münasibətilə Füzulidə yerləşən Mirzə Uluqbəy adına 1 saylı orta məktəbin kitabxanasına yeni kitablar hədiyyə etdi. Kitabların təqdimatında "Nar"ın təmsilçiləri, layihənin tərəfdaşı olan Azərbaycan Jurnalistlər Şəbəkəsi İctimai Birliyinin nümayəndələri və Mirzə Uluqbəy adına məktəbin müəllim və şagird heyəti iştirak edib.

Hədiyyə edilən kitablar məzmunca həm ibtidai və orta sinif şagirdləri, həm də yuxarı sinif şagirdləri üçün nəzərdə tutulub. Eləcə də, müxtəlif ensiklopediyalar, lüğətlər və Zəfər tariximizdən bəhs edən kitablarla zənginləşdirilən bu kitabxana Füzuli şəhərinin sakinləri üçün də açıqdır.

Qeyd edək ki, müştərilərinə sərfəli qiymətə mobil rabitə imkanları təqdim edən "Nar" özünün davamlı sosial layihələri ilə cəmiyyətin inkişafına töhfə verir. Bu layihələrin əsas istiqaməti Azərbaycanın bölgələri, o cümlədən, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarıdır. "Nar"ın həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz.

"Nar" hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. "Nar" son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.

SON SƏHİFƏ
SƏS
24 aprel
2024-cü il

"SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# Artıq görülən işə görə əlavə əməkhaqqı verilməlidir?

*VƏKİL AÇIQLADI*



**"Azərbaycan Respublikası Əmək Məcəlləsinin 9-cu maddəsində əmək müqaviləsi üzrə işçinin əsas hüquqları təsbit olunmuşdur". Bu sözləri SİA-ya açıqlamasında vəkil Turan Abdullayev deyib. Onun sözlərinə görə, onlardan biri də iş vaxtından artıq vaxtda işə cəlb olunduqda əlavə əmək haqqını almaq və ya onun verilməsini tələb etmək hüququdur: "İş vaxtından artıq iş dedikdə- işəgötürənin əmri (sərəncamı, qərarı) və işçinin razılığı ilə əmək funksiyasını müəyyən olunmuş iş günü vaxtından artıq müddət ərzində yerinə yetirməsi sayılır".**

Vəkil sözlərinə belə davam edib: "İşəgötürən, faktiki olaraq hər bir işçinin iş vaxtının və iş vaxtından artıq işlənmiş saatlarının dəqiq, dürüst uçotunu aparmağa borcludur. İşçilərə iş vaxtından artıq vaxt ərzində görülən işin hər saatı üçün əmək haqqı aşağıdakı kimi ödənilir:

1) əməyin vaxtamuzd ödənilmə sistemində saatlıq tarif (vəzifə) maaşının ikiqat məbləğindən aşağı olmamaqla;

2) əməyin işəmuzd ödənilmə sistemində işəmuzd əmək haqqı tam ödənilməklə müvafiq dərəcəli (ixtisaslı) vaxtamuzd işçinin saatlıq tarif (vəzifə) maaşından aşağı olmamaqla əlavə haqq məbləğində.

Əmək müqaviləsində, kollektiv müqavilədə iş vaxtından artıq vaxt ərzində görülən işə görə işçilərə daha yüksək məbləğdə əlavə haqqın ödənilməsi nəzərdə tutula bilər. İş vaxtından artıq işlərin əlavə istirahət günü ilə əvəz edilməsinə yol verilmir".

*Ayşən Vəli*

# Xavi "Barselona"da qalmağa yaxındır



**"Barselona"nın baş məşqçisi Xavi Kataloniya klubunda qalmağa yaxındır. QOL.az xəbər verir ki, bu barədə "El Chiringuito TV" məlumat yayıb. Yaxın vaxtlarda Xavi klubun prezidenti Joan Laporta və idman direktoru Deku ilə görüşüb, əməkdaşlığın mümkün davamını müzakirə edəcək.**

Xatırladaq ki, daha əvvəl ispaniyalı mütəxəssisin 2025-ci ilə qədər "Barselona"da qalmağa hazır olduğu haqda məlumat yayılmışdı.

# Hansı evlərə sənəd verilə bilməz?

*AYDINLIQ GƏTİRİLDİ*



"Evlərin sənədləşməsi son yüz il ərzində davam edən qlobal, həcmi böyük bir məsələdir. Qanunsuz istifadə olunan, qismi sənədlər üzərindən verilən, müxtəlif təşkilatların ilkin sənədləşdirmə etdiyi əmlaklar var ki, onlardan bizim vətəndaşlar istifadə edir. Təəssüf ki, bu məsələ hələ də öz qanuni həllini tapmayıb. Müxtəlif mənbələrə görə, qanunsuz tikililərə aid rəqəmlər 500-600 arasındadır və müxtəlif kateqoriyalara aiddir. Ümumiyyətlə sənədi olmayan evlər, torpaq sahələri var. Sovet hökuməti vaxtından qalma müxtəlif yaşayış qəsəbələri var ki, bunun qanunlaşması gələcək illərdə, mərhələlərdə nəzərdə tutulub". Bu sözləri SİA-ya danışan daşınmaz əmlak üzrə ekspert Elnur Azadov deyib.

Onun sözlərinə görə, Sovet hökuməti dağılandan sonra kütləvi şəkildə məcburi köçkünlərin axımı oldu: "Daha sonra 2000-ci illərin əvvəllərindən bələdiyyələr formalaşandan sonra, müxtəlif sənədləşmələr edildi, fəqət yenə də hazırda tam sənədi olan da var, qismən sənədi olan da var, heç sənədi olmayan da var".

Ekspert əlavə edib ki, bu qanunsuz tikililərin sənədləşməsi ilə bağlı keçən ilin yanvarın 30-da Ədliyyə Nazirliyi ilə Əmlak Məsələləri Dövlət Xidməti arasında Ombudsman dəvət edilərək bir konfrans keçirildi: "Konfransda qərara alındı ki, ölkədə biznes mühitinin yaxşılaşdırması barədə olan qanunvericiliyə istinadən, ölkədə olan bu qanunsuz tikililərin sənədləşməsi ilə bağlı bir portal yaradılsın. O portalda aidiyyatı olan qurumlar iştirak edəcək və 2024-cü ildə xalqa açıq elan edilməsi gözlənilir. Bu portal dövlət tərəfindən hazırlanıb, ölkədə nə qədər qanunsuz tikili var, hamısının sənədləşməsi bu portaldan həyata keçiriləcək. Burada müxtəlif məqamlar yaranarsa, yenə də qanunvericiliyə uyğun olaraq qeydiyyat tamamlanacaq".

*Ləman Sərraf*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 3200